

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 132 (5120) **26 iyul** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Qaçqın və məcburi köçkünlərin böyük himayədarı

***Prezident İlham Əliyevin növbəti imzaladığı sərəncamlar qaçqın və məcburi köçkünlərə yüksək dövlət qayğısının reallıqlarıdır***

Səh 2



3

Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib



3

YAP müxalifətə xəbərdarlıq etdi



10

Sarkisyan hakimiyyəti tanınmış rəssamın qızını həbs etdi



# Qaçqın və məcburi köçkünlərin böyük himayədarı

*Prezident İlham Əliyevin növbəti imzaladığı sərəncamlar qaçqın və məcburi köçkünlərə yüksək dövlət qayğısının reallıqlarıdır*



***Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xarakterik xüsusiyyətlərindən biri də həyata keçirilən siyasətin müsbət nəticələrinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının günü-gündən yaxşılaşmasıdır. Əhalinin maddi gəlirlərinin davamlı şəkildə çoxalması, əməkhaqqı və pensiyaların, eləcə də büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, vaxtaşırı artırılması və bu qəbildən olan digər tədbirlər ölkədə sosial sferada vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm parametrlərdəndir.***

Qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası öz bəhrəsini verməyə başlayan andan, iqtisadi imkanlar yarandıqca dövlət tərəfindən, digər sahələrdə olduğu kimi, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə də bağlı geniş tədbirlər həyata keçirilir.

Dövlət başçısını "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamda deyilir: Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamını "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanununa uyğunlaşdırmaq məqsədilə qərara alıram: "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 292) 1-ci hissəsində "səviyyələrində" sözündən sonra ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri əlavə edilsin.

## Faktlar, rəqəmlər, reallıqlar

Ümumiyyətlə, son 20 ildə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 4,3 milyard manat vəsait sərf olunub ki, ondan 2 milyard manat dövlət büdcəsinin, 1,5 milyard manat Dövlət Neft Fondunun, 0,8 milyard manat isə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların vəsaitidir. 2012-ci ildə bu məqsədlə ayrılmış 603 milyon manat vəsaitdən 273 milyon manatı büdcə, 300 milyon manatı Dövlət Neft Fondunun və 30 milyon manatı isə beynəlxalq təşkilatların vəsaitidir. Bu göstərici 2003-cü illə müqayisədə 5,5 dəfə çoxdur.

Ötən 10 ildə bir milyon 200 mindən artıq yeni iş yerinin açılması işsizlik və məşğulluq probleminin həllinə öz müsbət təsirini göstərir. Son on ildə orta maaş 5,6 dəfə, orta pensiya 9,2 dəfə artıb. Bu müddətdə respublikada 2700 məktəb, 500-ə yaxın xəstəxana, 35 olimpiya mərkəzinin tikilib istifadəyə verilməsi də iqtisadi uğurlarımıza əsaslanır. Avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpa edilməsi, yeniləşdirilməsi və inkişaf etdirilməsilə bağlı son illərdə genişmiqyaslı işlər görülmüşdür. Son 10 ildə dövlətin ali məktəblərində ödənişli əsaslarla təhsil alan 8 min 700 məcburi köçkün tələbənin təhsil xərcləri dövlət büdcəsi vəsaiti hesabına ödənilmişdir.

Bəli, bu gün dövlətimiz və Cənab Prezidentimizin qaçqın və məcburi köçkünlər üçün gördüyü işlər və apardığı siyasət ürəkaçandır. Qaçqın və məcburi köçkünlər, inanırlar ki, Prezidentimizin apardığı genişmiqyaslı danışıqları və güclü siyasəti nəticəsində tez bir zamanda torpaqlarımız işğaldan azad ediləcək və onlar öz ata-baba yurdlarına - Qarabağa dönəcəklər. Çünki dövlətin, onun Rəhbərinin bu istiqamətdə atdığı addımları, həyata keçirilən məqsədyönlü siyasətin uğurlu nəticələrini aydın görürlər.

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonunun Birinci Şahsevən-Əhmədli-Dünyamalılar avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, iyirmi beş min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Birinci Şahsevən-Əhmədli-Dünyamalılar avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 4,6 milyon (dörd milyon altı yüz min) manat ayrılsın.

Maliyyə Nazirliyi və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə bu Sərəncamda nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Maldiv Respublikasının Prezidenti Abdulla Yamin Abdul Qəyyuma təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Maldiv Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və tərəqqi arzulayıram".

* * *

Dövlətimizin başçısı, həmçinin Liberiya Respublikasının Prezidenti xanım Ellen Conson-Serlifi təbrik edib. Məktubda qeyd olunur: "Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi diləyirəm".

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Milix Yevdayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə Milix İlxananoviç Yevdayev "Şöhrət" ordeni ilə təltif edilsin.

# Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib

***İyulun 25-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib.***



Müşavirədə Yeni Azərbaycan Partiyasının yarımillik fəaliyyətinin nəticələri müzakirə edilib, habelə Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə “”Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktı” ilə əlaqədar partiyanın qarşısında duran vəzifələr nəzərdən keçirilib. Vurğulanıb ki, Azərbaycan Respublikasının Konstitusiyasına təklif edilən dəyişikliklər ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik təsisatların fəaliyyətinin və bütövlükdə idarəetmə sisteminin təkmilləşdirməsi məqsədlərinə xidmət göstərir. Konstitusiyaya təklif olunan dəyişikliklərin Azərbaycan Respublikasının bəyan etdiyi demokratiyanın inkişafı konsepsiyasının uyğun olduğu qeyd olunmuş, eyni zamanda Referendumun keçirilməsi ilə əlaqədar Yeni Azərbaycan Partiyasının qarşısında duran təşkilati və təbliğat xarakterli vəzifələr müəyyənləşdirilmişdir. Həmin vəzifələrin yerinə yetirilməsi ilə bağlı partiyanın rayon və şəhər təşkilatlarına müvafiq tapşırıqlar verilmişdir.

# Konstitusiya Məhkəməsi “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Referendum Aktı layihəsinə rəy verib



***İyulun 25-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyinin alınması üçün iyulun 18-də təqdim olunmuş “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ilə bağlı məsələyə baxılıb.***

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq işə baxan Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib. Sonra F.Abdullayev məruzəçi hakimlərə söz verib. Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev məruzə ilə çıxış edərək Azərbaycan Respublikası Prezidentinin Konstitusiyaya təklif etdiyi dəyişikliklər barədə ətraflı məlumat verib.

Digər məruzəçi - Konstitusiya Məhkəməsinin hakimi Rəfael Qvaladze isə çıxışında Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi qaydaları haqqında məlumat verib.

Qeyd edilib ki, Konstitusiyanın müvafiq bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Ali Qanununa dəyişiklik yalnız referendum yolu ilə edilə bilər. Konstitusiyanın 153-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti təklif verdikdə Konstitusiya Məhkəməsinin rəyi alınır. Azərbaycan Prezidenti Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev geniş çıxış edərək Konstitusiyaya sonuncu dəyişiklikdən ötən yeddi il ərzində ölkəmizin sürətli inkişafı nəticəsində əldə edilmiş nailiyyətlərin Konstitusiyanı təkmilləşdirmək zərurətini yenidən meydana gətirdiyini vurğulayıb. Ş.Əliyev bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən Konstitusiyaya təklif edilən dəyişikliklərin hüquqi əsaslarından danışıb. Bildirib ki, bu dəyişikliklər dünya təcrübəsində də əksini tapıb.



Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə əlaqədar qərar qəbul etmək üçün müşavirə otağına keçiblər. Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını oxuyub. Qərara əsasən, Konstitusiya Məhkəməsi “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktının layihəsinə rəy verib. Bununla da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

# YAP müxalifətə xəbərdarlıq etdi

***“Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendumun keçirilməsinin əleyhinə iş aparmaq üçün həmin qüvvələr əvvəlcə təşviqat qrupu yaratmalıdırlar”.***



Bu fikirləri Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov AXCP və Milli Şuranın Referendum əleyhinə etiraz aksiyaları keçirəcəyi haqda xəbərlərə münasibət bildirərkən deyib. YAP funksioneri vurğulayıb ki, referendum əleyhinə mitinqlər keçirmək istəyənlər bunu reallaşdırmaq üçün sosial bazaya, elektorata malik deyillər: “Təklif edilən əlavə və dəyişikliklərin hansının əleyhinədirlərsə, ortaya hüquqi fakt qoya bilmirlər. Yəni, onların hüquqi cəhətdən heç bir açıqlaması yoxdur. Konstitusiyaya əlavə və dəyişikliklərin böyük əksəriyyəti insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Digərləri isə yaş məhdudiyyətlərinin aradan qaldırılması və yeni dövlət idarəçilik institutunun yaradılmasıdır. Bunun nəyinə etiraz edirlər? Dedi-qodu, şayiə ilə nə demək, etmək istəyirlər? Referenduma çıxarılan məsələlərin hər biri xalqın mənafeyinə xidmət edir.

Ona görə də təşkil edəcəkləri mitinqlərə qohum-əqrəbalarından başqa heç kim gəlməyəcək. Yəni, öz ətraflarından başqa kimi toplaya bilərlər? Heç kimi”. S.Novruzov qeyd edib ki, müxalifət icazəsiz mitinqlərə əl atsa, qanunvericiliyə uyğun olaraq onlara cavab veriləcək: “Qanunla müəyyənləşdirilir ki, sərbəst toplaşmaq azadlığını həyata keçirmək üçün müraciət edilir və mitinq keçirmək üçün müvafiq yer ayrılır, təhlükəsizlik təmin edilir. Yalnız bu halda onlar mitinqləri keçirə bilərlər”.

# “Bakı hər zaman irimiqyaslı yarışlar keçirməyə hazırdır”

***Bakıda keçirilən bədii gimnastika üzrə Dünya Kubokunda lentlə hərəkətlərdə bürünc medal qazanan Marina Durunda bizi çox sevindirdi.***



***AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov deyib.***

Bildirib ki, Azərbaycan Gimnastika Federasiyası artıq uzun illərdir müxtəlif iri tədbirlər keçirir və həmişə də uğurla təşkil edir. Düşünürəm ki, daha iri yarışları keçirmək iqtidarındayıq və öhdəsindən layiqincə gələ bilərik. Bakı hər zaman yarışlar keçirməyə və qonaqları qəbul etməyə hazırdır. Əsas odur ki, bizə insanlar idman xətti ilə, o cümlədən gimnastika yarışlarında iştirak etmək üçün gəlirlər. Görürəm ki, insanlar buradan dost kimi ayrılırlar. Bu, ölkəmizin çox böyük nailiyyətidir. İnsanlar yaxşı təəssüratlarla, bura qayıtmaq ümidi ilə gəlir və gedirlər. Altay Həsənov vurğulayıb ki, Bakıda keçirilən bədii gimnastika üzrə Dünya Kuboku “Rio-2016” Yay Olimpiya Oyunlarından əvvəl son yarışlardır. Bu mərhələnin üstünlüyü ondadır ki, idmançılar öz güclərini sınayırlar. Azərbaycanın idman ölkələri arasında ilk sıralarda olduğunu bildirən Altay Həsənov deyib: “Bunu ölkəmizdə keçirilən idman tədbirləri də göstərir. İnanıram ki, gün gələcək, biz futbol üzrə dünya çempionatını, Olimpiya Oyunlarını keçirəcəyik, çünki Azərbaycan artıq buna hazırdır və layiqdir”.

# M.V.Lomonosov adına MDU-nun Bakı filialında möhtəşəm buraxılış gecəsi keçirilib

## *Professor Nərgiz Paşayeva: Mən tələbələrimlə fəxr edirəm*

***Yolunuz açıq olsun, məzunlar! Qoy universitetdə qazandığınız biliklər, uğurlu karyeranın qurulması üçün möhkəm təməl olsun, cəmiyyətin inkişafına, həyatda ən ali məqsədə nail olmağa yönəlsin. Başlıcası isə tale sizi haraya aparıb çıxaracaqsa, hər biriniz deyəcəksiniz: "Mən M.V.Lomonosov adına MDU-nun Bakı filialının məzunuyam və bundan qürur duyuram!".***




Bəli, illər hiss olunmadan və sürətlə keçir. Lakin elə günlər var ki, ömür boyu insanın xoş xatirələrində və qəlbində qalır, ürəyində yaşayır, həyatı boyu yaddan çıxmır! Nəhayət, belə bir gün gəlib çatdı! Dönə-dönə qayıtmaq, bu hissləri yenidən yaşamaq, əsl xoşbəxtliyin unudulmaz anlarını qaytarmaq istədiyin bir gün.

M.V.Lomonosov adına MDU-nun Bakı filialında ənənəvi buraxılış gecəsi məhz belə bir gün oldu. Əvvəlki illərdə olduğu kimi, bu dəfə də buraxılış gecəsi məzunların, valideynlərin, müəllimlərin və bu gözəl bayramın bütün qonaqlarının həyatında mühüm hadisəyə çevrildi.

Bakı filialı kampusunun həyətində canlanma hökm sürürdü. Burada qonaq çadırları quraşdırılmış, dünənki tələbələr və onların doğmaları mərasimin başlanmasını səbirsizliklə gözləyir, müəllimlər xeyir-dua verir, fəxri qonaqlar öz yerlərini tuturdular. Hiss olunurdu ki, buraya toplaşan məzunlar baş verənlərə dərin həyəcan və həssaslıqla yanaşırdılar. Onların çoxu üçün universitetdə təhsil almaq təkcə peşəkar formalaşmanın başlanğıcı deyil, həm də öz daxili potensialını və yaradıcı qabiliyyətlərini üzə çıxarmaq imkanı olub.

Bu gündə həm sevinc, həm də kədər var. Ona görə kədər var ki, tələbəlik illəri yeni dost və tanışlar qazanılan, hər bir məzunun həyatında vacib mərhələ olan şən, fəal və yaddaqalan dövrdür. İndi isə bütün bunlar arxada qalıb... Yəqin elə buna görə də bəzi tələbələrin gözləri yaşarmışdı...

Ona görə sevinc var ki, yeni nəsil məzunlar müstəqil həyata başlayırlar. Tələbələrin çoxu üçün ali məktəb ürəklərdə həmişəlik nurlu və doğma ocaq kimi qalacaq, çünki onların gəncliyi məhz burada keçib, özlərini şəxsiyyət kimi dərk edərək formalaşıb, həyatda gələcək uğurların təməli qoyulub. Müəllimlər və tələbələr ayrılsalar da, ümumi xatirələri, ümumi nailiyyətləri yaddan çıxarmır, başlıcası isə almamaterin divarları arasında reallaşmış peşəkar və şəxsi uğurların məsuliyyətini dərk edirlər.

Məzunlar yasəmən rəngli mantiyada və kvadrat formalı papaqlarda necə də gözəl və vüqarlı görünürdülər! Onlar diplomu alandan sonra hiss və emosiyalarını gizlətməyərək, əsl ana qayğısı və diqqətinə görə universitetin rektoru Nərgiz xanım Paşayevaya, çətin və şərəfli əməyə görə müəllimlərinə, səbir və dəstəyə görə valideynlərinə ürəkdən gələn xoş və səmimi sevgilərini, hörmət və təşəkkürlərini ifadə edirdilər. Bunu görmək və eşitmək lazım idi!

Təntənəli gecəni tanınmış teleaparıcı Fuad Axundov və M.V.Lomonosov adına MDU-nun Bakı filialının magistr məzunu Arzu Məmmədova aparırdı. Onlar əvvəlcə M.V.Lomonosov adına MDU-nun Bakı filialının professor-müəllim heyətini, məzunları və onların valideynlərini, fəxri qonaqları, MDU-nun Moskvadan tədbir üçün məxsusi gəlmiş akademik heyətini, o cümlədən MDU-nun kimya fakültəsinin dekanı, fiziki kimya kafedrasının müdiri, Rusiya Elmlər Akademiyasının akademiki Valeri Lunini, MDU-nun iqtisadiyyat fakültəsinin dekanı, professor, tətbiqi institusional iqtisadiyyat kafedrasının müdiri, Rusiya Federasiyası Prezidenti yanında İqtisadi Şuranın üzvü, iqtisad elmləri doktoru, professor Aleksandr Auzanı, filologiya elmləri doktoru, professor, tərcümə məktəbinin direktoru Nikolay Qarbovskini, psixologiya elmləri doktoru, MDU-nun sosial psixologiya kafedrasının professoru, Rusiya Təhsil Akademiyasının akademiki Aleksandr Dontsovu salamladılar.

Buraxılış gecəsi mərasimində Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, AMEA-nın prezidenti Akif Əlizadə, Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov, ali məktəb rektorları, Milli Məclisin deputatları, görkəmli ictimai xadimlər, elm adamları, diplomatik missiyanın nümayəndələri iştirak edirdilər.

Diqqətə çatdırılıb ki, M.V.Lomonosov adına MDU-nun Bakı filialı fəaliyyət göstərdiyi səkkiz il ərzində müstəqil Azərbaycanın təhsil sistemində layiqli yer tutub. Bu gün bu ali məktəb ölkəmizdə yeganə təhsil ocağıdır ki, diplomu bütün dünyada tanınır. Bununla yanaşı, Bakı filialı ötən il yaranmasının 260 illiyini qeyd edən, ən qocaman və tanınmış universitetlərdən biri olan M.V.Lomonosov adına MDU-nun çoxəsrlik ənənələrini davam etdirir. Görkəmli alimlərin bütöv bir pleyadası, o cümlədən 11 Nobel mükafatı laureatı, məsələn, kimyaçı Nikolay Semyonov, fiziklər İqor Tamm və əslən Bakıdan olan Lev Landau, Pyotr Kapitsa, şair və yazıçı Boris Pasternak, habelə Abel mükafatı (riyaziyyatçılar üçün Nobel mükafatının analoqu) laureatı Yakov Sinay və XX əsrin ən böyük riyaziyyatçılarından biri Andrey Kolmoqorov Moskva Dövlət Universitetinin yetirmələridir.

Filialın filologiya fakültəsi magistraturasının məzunu Arzu Məmmədova deyib: "Bütün məzunlar adından o insana minnətdarlıq etmək istəyirəm. Çünki onsuz bu elm və təhsil bayramı baş tuta bilməzdi. Bu insan M.V.Lomonosov adına MDU-nun Bakı filialının rektoru, AMEA-nın müxbir üzvü, professor Nərgiz Paşayevadır. Əzizimiz Nərgiz xanım, biz hər zaman Sizin diqqət və qayğınızı hiss etmişik. Bu gün də Sizin bizə görə həyəcan keçirməyinizi hiss edirik. Biz var qüvvəmizlə çalışacağıq ki, Siz öz məzunlarınızla həmişə qürur duyasınız".

Rektor Nərgiz Paşayeva buraxılış və diplomların təqdim edilməsi mərasimində qonaqları, müəllimləri, tələbələri və onların valideynlərini salamlayaraq deyib: "Hörmətli qonaqlar, əziz həmkarlar, tələbələr, valideynlər! Sanki M.V.Lomonosov adına MDU-nun Bakı filialını bu yaxınlarda açmışıq. Lakin artıq deyildiyi kimi, bu il beşinci bakalavr, üçüncü magistr buraxılışıdır. Hər dəfə belə bir gündə məzunlarımıza diplomları təqdim edərək özümün fəxri və həyəcan doğuran missiyamı yerinə yetirirəm. Bu gün tələbə və məzunlarımızın ümumi sayı müxtəlif fakültələri əhatə etməklə 503 nəfərdir. Bir rektor kimi sizə deyirəm ki, bütün bu dövr ərzində bir diplom belə sırf formal olaraq onu almaq hüququ olmayana, müvafiq biliyi olmayana, hazırlıqsız və layiq olmayana verilməyib. Bu da təbiidir, çünki himayə, xahiş, tanışlıq, xüsusi yanaşma ilə, ümumi qayda və qanunlardan kənar bizim universitetə daxil olmaq və burada təhsil almaq mümkün deyil. Bəli, həyatın özünün bizi bir-birinə bağladığı dostlarımız, tanışlarımız, qohumlarımız, uşaqlarımız, qardaşlarımız, bacılarımız, qonşularımız var. Lakin universitetin astanasından içəri qədəm qoyan kimi bizim üçün əsas insanlar tələbələrimiz və başlıca məqsəd onları keyfiyyətli təhsillə təmin etmək olur. Özü də bu, rektorun sadəcə tribunadan səslən-dirdiyi gəlişigözəl sözlər deyil. Bu həqiqət və zərurətdir ki, onsuz ali təhsildə həqiqi nəticələr, əsl peşəkarların, mütəxəssislərin hazırlığı üçün sağlam mənəvi mühit və lazımi təhsil şəraiti olmur. Müdriklər deyirlər: "Həqiqət olmayanı həqiqət kimi qələmə verməyə çalışma və doğru olanı yalan adlandırma". Biz həmişə müdrik məsləhətlərə əməl etməyə çalışırıq.

Məzun-2016 xüsusi, təntənəli və hətta, demək olar, tarixi məna daşıyır. Bu anın, bu günün qəhrəmanları isə bizim ilk iqtisadçı məzunlarımızdır. Sirr deyil ki, son vaxtlar gənclərin çoxu iqtisadçı olmaq istəyir, necə ki, vaxtilə çoxları kosmonavt, fizik, səyahətçi olmağı arzulayırdılar. Bu o demək deyil ki, iqtisadçılar romantikadan, ilhamdan, təxəyyüldən, fantaziyadan məhrumdurlar, guya onları sırf hesablama və rəqəmlər maraqlandırır. Müasir iqtisadçı, sadəcə, romantik, xəyalpərəst, fantaziyaçı olmağa borcludur, axı o, bəzən gələcəyi proqnozlaşdırmalıdır.

Ardı Səh. 5

# M.V.Lomonosov adına MDU-nun Bakı filialında möhtəşəm buraxılış gecəsi keçirilib

## *Professor Nərgiz Paşayeva: Mən tələbələrimlə fəxr edirəm*

Əvvəli Səh. 4



Mən istərdim ki, bizim iqtisadçı məzunlarımız müasir dünyada, müasir dünya düzənində iqtisadiyyat elminin, onun nəzəri əsaslarının necə vacib olmasını başa düşsünlər. Siz öz biliyinizi, iqtisadi savadınızı, peşəkarlığınızı tətbiq edəndə, analitik məsləhətlər, hesablamalar verəndə, unutmayın ki, iqtisadiyyat elminin mühüm və hətta əsas tərkib hissəsi sosial iqtisadiyyatdır. Milyonlarla insan iqtisadi yüksəlişdən bəhrələnəndə bu, ictimai rifah, davamlı firavanlıq və sabitlik gətirir. O zaman neft, qaz, kömür, qızıl və s. kimi milli sərvətləri asanlıqla milli nailiyyətə, milli tərəqqiyə çevirmək olur. Mən istəyirəm yadda saxlayasınız ki, sizin praqmatizmlə izləməli olduğunuz qlobal iqtisadi prosesin arxasında hər zaman böyük, intəhasız harmoniya durur. Bu, mənəvi dəyərlər, qəlb, mənəvi prinsiplərdir ki, onlarsız heç bir hesablama, heç bir formul gözlənilən müsbət nəticəni verə bilməz.

Kapital, şübhəsiz ki, istənilən tərəqqinin tərkib hissəsidir. Lakin ondan da vacib olan fakt və şərt kapitalın ədalətli bölgüsüdür. Kapital, ədalət, ağıl və intellektin birliyi, fikrimcə, elə iqtisadi xoşbəxtliyin formuludur. Heç vaxt yaddan çıxarmayın, kapital o zaman xüsusi hörmətə layiq olur ki, o, ən yaxşılarına çatır, ən yaxşılarının yaxşısını dəstəkləyir, yaxşılığa doğru dəyişikliklərin baş verməsi üçün stimul olur. Əks halda, hər şey günlərin birində sabun köpüyü kimi puç olacaq və sonda məyusluq, sıfır nəticə, hədər getmiş vaxt qalacaq.

İstərdim ki, bütün məzunlarımız başqasının uğurlarını sezməyi və görməyi bacarsınlar. Qoy o uğurlar sənin olmasın, lakin əgər insan özgəsinin ləyaqətini və özgə əməyini görməyi öyrənməyibsə, deməli, o, özü hələ təmiz yolla uğur qazanmayıb, heç zaman əsl zəhmət çəkməyib. Üzüm tənəyi kimi günəşə, sərinliyə, nəmliyə cəhd edin ki, tükənməyəsiniz, qurumayasınız, yalnız öz şirənizlə qidalanasınız. Lakin əgər siz nə vaxtsa biliklərinizə münasibətdə ədalətsizlik, anlaşılmazlıq, laqeydlik, qısqanclıqla qarşılaşsanız, qəm etməyin, həyəcanlanmayın, öz yolunuzla möhkəm və əminliklə addımlayın. Yadda saxlayın ki, kim sizin biliyinizə, ağlınıza qısqanırsa, o, sizə heç vaxt çatmayacaq. Sizə baxarkən "Faust" əsərindən "Mümkün olmayanı istəyən kəs mənə əzizdir" fikrini xatırlayıram. Nəsə alınmayanda bunu tez-tez ürəyinizdə təkrarlayın, ruhdan düşməyin, ümidinizi itirməyin. Sizin bütün həyatınız, böyük gücünüz, böyük imkanlarınız irəlidədir, heç zaman bunlara inamınızı itirməyin.

Sizinlə şad və mühüm bir xəbəri bölüşmək istəyirəm - bu ildən universitetimizdə MDU-nun fizika fakültəsi açılır. Bu mühüm hadisə münasibətilə hamınızı təbrik edirəm! Biz Azərbaycan Prezidenti İlham Əliyevə bu təşəbbüsü dəstəklədiyinə görə təşəkkür edirik. Bizə hər zaman kömək edən və bizi dəstəkləyən əziz, hörmətli Viktor Antonoviç Sadovniçiyə təşəkkür edirik. Həmçinin kimya və riyaziyyat fakültələri ilə yanaşı, bir neçə il əvvəl fizika fakültəsinin açılması planımızı - bu mühüm elmi-təhsil layihəsinin reallaşmasına kömək edən hər kəsə "Sağ olsun!" deyirəm. Xüsusilə o adamlara ki, MDU-nun fizika fakültəsi və onun nəzdində elmi-tədqiqat mərkəzlərinin - sadəcə dəb brendi və ya piyar-layihə kimi pulla almaq və hara gəldi aparmaq mümkün olmamasını bir daha sübut etdilər. Fizika elm okeanında "zümrüd adasıdır" və fizika fakültəsini yanlış istiqamətə buraxmaq olmazdı. Bunun qarşısını alan hər kəs sağ olsun! Fakültə açılmalı olduğu yerdə - Moskva Dövlət Universitetinin Bakı filialında açılır. Biz zəmanət veririk ki, bu fakültənin ilk tələbələri Moskva komissiyasının ciddi imtahanlarından çıxanlar olacaq.

Əziz məzunlarımız, ümidvaram ki, universitetimizdə görmək istədiyinizi gördünüz, eşitmək istədiyinizi eşitdiniz, başa düşmək istədiyinizi başa düşdünüz, inanmaq istədiyinizə inandınız, seçmək istədiyiniz peşəni seçdiniz, ən başlıcası isə universitetimizi seçdiniz. Siz MDU-nu yaxşıların yaxşısı olmaq üçün seçmişiniz. Mənim sözlərimdə nə pafos, nə də mübaliğə var, bu, həqiqətən də belədir. MDU məzunu elə MDU məzunudur, bununla da hər şey deyilib!

Əziz məzunlarımız, hansı zirvələrə can atırsınızsa-atın, qarşınıza hansı məqsədləri qoyursunuzsa-qoyun, sizə bu zirvələri fəth etməyi və məqsədlərinizə çatmağı arzu edirəm. Bu gün siz sınaqdan şərəflə çıxdınız. Siz Moskva Universitetinin diplomunu səyləriniz, zəhmətiniz, istedadınız sayəsində alırsınız. Amma heç vaxt unutmayın ki, sınaqlar həyatın müntəzəm təkrarlanan mərhələləridir. Deyilənə görə, məqsədinə çatmaq üçün həyatın bütün sınaqlarından, oddan-alovdan keçməyi, bərkdən-boşdan çıxmağı bacarmalısan. Əzizlərim, unutmayın ki, necə qəhrəmanlıqlar göstərirsinizsə-göstərin, necə uğurlar qazanırsınızsa-qazanın, peşənizdə hansı yüksəkliyə nail olursunuzsa-olun, həmişə yaxşı insan olmağa çalışın, bu, həm sizə, həm bizə lazım olan keyfiyyətdir.

Valideynlərə müraciət edərək demək istəyirəm ki, mən tələbələrimlə həm də sizin onlara verdiyiniz tərbiyə sayəsində fəxr edirəm. Bəzən valideynlər uşaqlarına başlıca olan düzgün tərbiyədən başqa hər şey verirlər. Siz onları yaxşı tərbiyə etmisiniz. Sizi ürəkdən təbrik edirəm. Sizə, doğmalarınıza və yaxınlarınıza, bu gün bu bayramda iştirak edə bilməyən hər kəsə müvəffəqiyyət arzu edirəm.

Qoy gənclərimizin yolu açıq, həyatı gözəl, canı sağlam, mənəviyyatı güclü olsun. Sizə uğurlar arzu edirəm!"

Musiqi sədaları altında müxtəlif fakültələrin magistr və bakalavrlarına diplomların təntənəli surətdə təqdim olunması mərasimi başladı. Xalq Artisti Teymur Göyçayevin dirijorluğu ilə Azərbaycan Dövlət Kamera Orkestrinin, Xalq Artisti Gülbacı İmanovanın rəhbərlik etdiyi M.V.Lomonosov adına MDU-nun Bakı filialının xorunun, muğam üçlüyünün və xanəndə Güllü Muradovanın, populyar müğənni Miri Yusifin iştirakı ilə maraqlı konsert proqramı oldu.

Diplomların təqdim olunması mərasimi tamaşaçıların alqışları, aparıcıların fakültələrin fəaliyyəti barədə verdiyi məlumatlar slaydların nümayişi ilə müşayiət olundu. Fakültələrdən hər biri barədə ayrıca danışmağa dəyər.

Kimya fakültəsi təkcə universitet üçün deyil, həm də bütün ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Kimya məktəbi həmişə Azərbaycan elminin qürur mənbəyi olub və kimya fakültəsi şanlı ənənələrin layiqli davamçısıdır. Fakültənin laboratoriya kompleksi təkcə ölkənin deyil, həm də regionun ən yaxşı laboratoriyalarından biri sayılır. Özü də tələbələr təkcə filialda eksperiment aparmırlar, tez-tez Moskvaya elmi səfərlər edirlər. Kimya fakültəsinin inkişaf etmiş infrastrukturu dünya səviyyəli tədbirlər keçirməyə imkan verir. Məsələn, 2015-ci ildə filialın bazasında məktəblilər arasında 47-ci Beynəlxalq Kimya Olimpiadası keçirilib. Maraqlıdır ki, Bakı filialı postsovet məkanında bu mötəbər kimya forumunu keçirmək hüququna M.V.Lomonosov adına MDU-dan sonra layiq görülən ikinci ali məktəbdir.

MDU-nun kimya fakültəsinin dekanı, fiziki kimya kafedrasının müdiri, Rusiya Elmlər Akademiyasının (REA) akademiki Valeri Lunin mərasimdə çıxış edərək dedi: "Bu əhəmiyyətli və parlaq tədbir artıq beşinci dəfədir keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev ilə MDU-nun rektoru Viktor Sadovniçi M.V.Lomonosov adına MDU-nun Bakı filialının açılışını bildirən rəmzi lenti sanki lap bu yaxınlarda kəsiblər. Budur, bu möhtəşəm və mükəmməl təhsil ocağı bu gün fəaliyyətdədir, gözəl mütəxəssislər hazırlayır. Biz Bakı filialı ilə çox fəxr edirik".

MDU kimyaçılarını Azərbaycanın kimya elmi ilə həqiqətən tarixi köklər bağladığını bildirən Valeri Lunin deyib: "Kimya iqtisadiyyatın mühüm sahəsidir. Ümumiyyətlə, kimya elmi sahəsində keyfiyyətli təhsil olmadan müasir elmin heç bir sahəsini inkişaf etdirmək mümkün deyil. Bu isə Azərbaycan üçün həyati əhəmiyyət daşıyan sahədir. Mən bütün məzunları təbrik edirəm və böyük məmnuniyyət hissi ilə onlara diplomları təqdim edəcəyəm".

Tətbiqi riyaziyyat fakültəsi 2008-ci ildən uğurla fəaliyyət göstərir. Fakültə funksional analiz, riyazi kibernetika və diskret sistemlər proqramlaşdırma kimi sahələrdə bakalavr və magistrlər hazırlayır. Bu fakültə tələbələr üçün ən çətin fakültələrdən biri sayılır. Buna görə də fakültənin hər bir məzunu öz diplomu barədə "Mən bacardım!" deyə bilər. Təəccüblü deyil ki, tətbiqi riyaziyyat fakültəsinin komandası təhsilə belə münasibət sayəsində dəfələrlə proqramlaşdırma üzrə milli və beynəlxalq çempionatların qalibi olub. İnformasiya texnologiyaları sahəsində IX "İT-Planet 2013/14" və X "İT-Planet 1014/15" beynəlxalq olimpiadalarında filialın magistrantlarının mükafata layiq yerlər tutması fakültənin son sanballı nailiyyəti olub.

Mərasimdə iştirak edən Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin qeyd edib ki, Bakıda 2009-cu ildən işləyir. Səfir deyib: "O vaxtdan etibarən diplomların təqdim olunması mərasimlərinin hər birində iştirak etmişəm. Buraxılış kvintessensiyadır və "MDU-nun Bakı filialı" adlı layihənin necə uğurla inkişaf etməsinin rəmzidir. Layihə bir çox səbəblər - Azərbaycan rəhbərliyinin, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi müdrikliyi, Moskva ilə Bakı arasındakı mövcud qarşılıqlı anlaşma sayəsində uğurlu olub. Biz Bakı filialı ilə fəxr edirik və onu başqa ölkələrə nümunə göstəririk".

Ardı Səh. 6

# M.V.Lomonosov adına MDU-nun Bakı filialında möhtəşəm buraxılış gecəsi keçirilib

## *Professor Nərgiz Paşayeva: Mən tələbələrimlə fəxr edirəm*





Əvvəli Səh. 5

MDU-nun ümumi topologiya və həndəsə kafedrasının müdiri, professor Yuri Sadovniçi tətbiqi riyaziyyat fakültəsinin məzunlarını təbrik edərək deyib: "Çox güclü buraxılışdır. Məzunların yarısının magistratura imtahanlarını müvəffəqiyyətlə verməsi xüsusilə xoşdur. Ümumiyyətlə, fakültənin bütün məzunları yaxşı oxuyublar. Onlara Azərbaycanın rifahı naminə daha böyük uğurlar arzu edirəm".

2008-ci ildən fəaliyyət göstərən filologiya fakültəsi almamaterin fəxri, filialın ilk fakültələrindən biridir. Azərbaycanda bu nadir fakültədə rus, ingilis, fransız, italyan və ispan filologiyası sahəsində yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Bu fakültənin məzunları təkcə xarici dillərə, həm də müvafiq dilin filologiyası sahəsində dərin biliklərə yiyələnmirlər, eyni zamanda, bu dillərin və ədəbiyyatların mütəxəssisləri kimi dərin fəlsəfi biliklər alırlar. Roman-german bölməsinin filoloqları dünya poeziyasının şedevrlərini məharətlə orijinalın dilində səsləndirirlər.

Tələbələr Dante Aligyeri, Pol Elüar, Redyard Kiplinq, Sergey Yesenin, Luis Sernuda Bidon və Bəxtiyar Vahabzadə kimi dünya klassiklərinin şeirlərini tamaşaçıların sürəkli alqış sədaları altında oxuyaraq bunu nümayiş etdirdilər.

BDU-nun rus dili kafedrasının dosenti, Bakı filialının filologiya fakültəsinin kuratoru Valeriya Baqryantseva M.V.Lomonosov adına MDU-nun Bakı filialının filologiya fakültəsini unikal adlandırıb, çünki bu fakültənin tələbələri dörd dili və ədəbiyyatı sıfırdan öyrənirlər. V.Baqryantseva deyib: "Tələbələrimizin əldə etdikləri nəticələri görəndə onlarla fəxr edirəm".



Filologiya elmləri doktoru, professor, MDU-nun Ali Tərcümə Məktəbinin direktoru, "Vestnik Moskovskoqo Universiteta" jurnalının baş redaktoru Nikolay Qarbovski deyib: "MDU-nun Bakı filialının növbəti buraxılış mərasimində ilk dəfə iştirak etmək mənim üçün böyük şərəfdir. Mənə çox xoşdur ki, son 8 ildə Bakı filialında görülən işləri müşahidə etmək imkanım olub. Deyə bilərəm ki, filialın istər burada, istərsə də Moskvada qazandığı nüfuza sadəcə heyran qalmışam".

2009-cu ildə yaradılan psixologiya fakültəsi ölkədə yeganə belə fakültədir. Psixiatriya və patopsixologiyanın əsasları ilə yanaşı öyrənilən fənlərin spektri sosial psixologiya, etnopsixologiya, kliniki psixologiya, inkişaf və yaş psixologiyası, pedaqoji psixologiya, mühəndis psixologiyası, əmək və erqonomika psixologiyası kimi sahələri əhatə edir. Maraqlıdır ki, fakültədə ölkədə yeganə psixofizioloji laboratoriya fəaliyyət göstərir və tələbələr bu laboratoriyanın köməyi ilə hər bir insanı öyrənə bilərlər.

MDU-nun sosial psixologiya kafedrasının professoru, Rusiya Təhsil Akademiyasının (RTA) akademiki Aleksandr Dontsov deyib: "Psixologiya elmi heç vaxt diqqətinizdən kənarda qalmayacaq, həmişə maraq oyadacaq. Mən çox istəyirəm ki, bu fakültədə sizin uşaqlarınız və nəvələriniz oxusunlar".

MDU-nun psixologiya fakültəsinin tədris üzrə dekan müavini, əmək psixologiyası və mühəndis psixologiyası kafedrasının dosenti Valentina Barabanşikova deyib: "Deyirlər ki, şəhərə vurulmaq üçün ya bütün həyatını, ya da bir gününü burada yaşamalısan. Mən ilk dəfədir və birinci gündür Bakı şəhərindəyəm və artıq ona vurulmuşam. Burada MDU-nun psixologiya fakültəsini həmkarlarımla təmsil etmək mənim üçün böyük şərəfdir. Çox şadam ki, bura əliboş gəlməmişik, hədiyyə gətirmişik. Məsələ bundadır ki, hər il fakültəmizdə ən yaxşı diplom işlərinə görə müsabiqə keçirilir. Artıq neçə ildir Bakı filialının məzunları layiqli yerlər tuturlar. Bu il də MDU-nun Bakı filialının üç məzunu ən yaxşı magistr dissertasiyalarına görə mükafatlara layiq görülüblər".

İqtisadiyyat fakültəsi MDU-nun Bakı filialının ən gənc fakültəsidir. Bu il həmin fakültənin ilk məzunları - iqtisadiyyatın və menecmentin müxtəlif sahələrində ciddi hazırlıq keçən, ən müasir innovativ texnologiyaları iqtisadi məsələlərin həllinə tətbiq etməyi bacaran gənclər diplom alıblar.

Filialın iqtisadiyyat fakültəsinin ilk məzunlarına diplomların təqdim edilməsi mərasiminə M.V.Lomonosov adına Bakı filialının rektoru, AMEA-nın müxbir üzvü professor Nərgiz Paşayeva başçılıq edib.

MDU-nun iqtisadiyyat fakültəsinin dekanı, tanınmış iqtisadçı, iqtisad elmləri doktoru, tətbiqi institusional iqtisadiyyat kafedrasının müdiri Aleksandr Auzan deyib: "Nərgiz xanım, Siz mümkün olmayanı etmişiniz. Siz Moskva Universitetinin ruhunu Bakıya gətirmisiniz. Biz özümüzü elə hiss edirik ki, sanki burada doğulmuşuq və bütün həyatımızı bu gözəl şəhərdə yaşamışıq. MDU-nun iqtisadiyyat fakültəsi Bakı filialına ən dəyərli müəllimlərini göndərib və biz buna təəssüflənmirik. 2016-cı ildə Azərbaycanın yeni iqtisadçıları yetişib. Hörmətli Nərgiz xanım, elə bu il də biz Sizinlə magistratura açmağı qərara almışıq ki, onların yolu davam etsin. Bu, heç də asan olmayıb və mən bu yolla irəliləməyimizə kömək edənlərə təşəkkürümü bildirmək istəyirəm. Çünki əslində Azərbaycan bankirlərinin dəstəyi ilə biz magistratura eksperimentini iki il əvvəl başlamışıq. Hörmətli həmkarlar, indi biz bu ilk addımları parlaq nəticəyə çevirməliyik. Cənab bankirlər, mən bəlkə də bu yeni iqtisadi vəziyyətdə sizə nə qədər çətin olduğunu bu salonda oturanların çoxundan daha yaxşı başa düşürəm. Amma gəlin azərbaycanlı gənclərə təkcə MDU-nun diplomlarını almaqda deyil, həm də bizim onlar üçün yaratdığımız fürsəti həyata keçirməkdə - Avropada menecment üzrə üç ən yaxşı məktəb sırasına daxil olan İsveç Beynəlxalq Biznes Məktəbinin diplomlarını almaqda da kömək edək".

Sonra ənənəyə uyğun olaraq Bakı filialının rektoru professor Nərgiz Paşayeva bakalavr və magistrlərə fərqlənmə diplomlarını təqdim edib, məzunlara həyatda uğurlar arzulayıb.

Sonda "Məzun andı" mərasimi keçirilib. Xor və məzunlar tələbələrin "Gaudeamus" himnini ifa ediblər. Kvadrat formalı məzun papaqları göyə atılıb.

Yekun olaraq qeyd edək ki, münbit torpağa əkilən toxumlar cücərib və sürətlə inkişaf etməyə başlayıb. İndi onlar ucalmağa can ataraq, elmi inkişaf və təbliğ etməyə başlayacaqlar. Mixail Lomonosovun dediyi kimi, "elm həqiqətin aynası, idrakın nuru, həyatın düzgün nəşəsi, gəncliyin tərifi, qocalığın dayağı, şəhər və ordu qurucusu, bədbəxtlikdə uğura inam, xoşbəxtliyin zinəti, həmişə sadiq və ayrılmaz yol yoldaşıdır". Yalnız doğma yurddan qaynaqlandığı təqdirdə elmin qiymətli olduğunu hesab edən Lomonosov deyirdi: "Qələbə yalnız ruh yüksəkliyi oyadan sonsuz arzudan, doğma vətənə ehtiraslı məhəbbətdən, cəsarət və qətiyyətdən yaranır. Özü də təkcə və bir o qədər də ayrıca sonsuz arzudan deyil, bütün qüvvələrin ardıcıl səfərbər edilməsindən, yavaş-yavaş, səbirlə dağları yerindən oynadan, əsrarəngiz dərinliyi üzə çıxararaq nurlandıran daim alışıb-yanmaq hissindən yaranır".

Budur, növbəti həyat səhifəsini çevirmək vaxtı gəlib çatdı. Buraxılış münasibətilə təbrik edirik! Bu cür parlaq və unudulmaz anlar, belə maraqlı və şən hadisələr, yeni tanışlıqlar artıq geridə qalıb, qarşıdan isə tamamilə yeni həyat səsləyir. Amma tələbəlik həyatını və doğma ali məktəbi unutmaq olmaz! Axı tələbəlik illəri ömrün ən gözəl və ən şirin çağlarıdır, xüsusən də əgər böyük MDU məktəbini keçmisənsə...

# Xalq Referendum layihəsini dəstəkləyir

**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Konstitusiya Referendumu layihəsi istər sadə xalq, istərsə də ziyalılarımız, ictimai-siyasi xadimlərimiz tərəfindən dəstəklənir. Məhz Ulu Öndər Heydər Əliyevin yürütdüyü qətiyyətli və uzaqgörən siyasəti nəticəsində, Azərbaycan bu gün güclü siyasət yürüdən, güclü iqtisadiyyata malik olan dövlətə çevrilib. Bu siyasət hazırda Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan xalqı müdrik, dəyərli, qiymət verə bilən xalq olduğu üçün dövlətimiz tərəfindən irəli sürülən hər bir addımı dəstəkləyir._**



**_ELDƏNİZ SƏLİMOV, millət vəkili:_**

- Bu uğurlu qərar Azərbaycan dövlətinin daha da möhkəmlənməsinə, vətəndaş maraqlarının təminatına imkan verəcək. Xüsusilə, parlamentin fəaliyyəti ilə bağlı müddəalara təklif edilən dəyişikliklər barədə fikirlərimi bildirmək istərdim. Belə ki, Milli Məclisin fəaliyyəti ilə bağlı təklif edilən dəyişikliklər iki istiqamətdədir. Birincisi, parlamentin Prezident tərəfindən buraxılması qaydasının konkret normaları müəyyənləşir, digər tərəfdən, deputatın səlahiyyətlərinin itirilməsinə səbəb olan amillərin sayı artırılır. Şübhəsiz ki, bu dəyişiklik Milli Məclis deputatlarının məsuliyyətinin daha da artırılmasına və öhdəliklərinin vicdanla icrasının təmininə yönələn təşəbbüsdür.

Daha bir diqqətçəkici faktor gənclərimizə verilən imkanların daha da artırılmasıdır.

Konstitusiyaya ən mütərəqqi dəyişiklik təkliflərindən biri də gənclərin dövlət quruculuğunun bütün təbəqələrində fəal iştirakına şəraitin yaradılmasıdır. Belə ki, artıq hakimlikdən deputatlığa, nazir postundan Prezidentliyə qədər heç bir vəzifədə yaş senzi olmayacaq ki, bu amilin özü ciddi demokratik islahat kimi qiymətləndirilir. Baxın, 18 yaşından etibarən gənclər seçkili orqanlarda öz şanslarını sınaya biləcək, yaxud da fərasətli, bacarıqlı, istedadlı ali təhsilli gənclər yüksək vəzifələrə təyinat alacaqlar.

**_NAZİM AĞAYEV, YAP Xaçmaz rayon təşkilatının sədri:_**



- Bildiyimiz kimi, müstəqil və müasir Azərbaycan Respublikasının daha sürətli inkişafı, tərəqqisi üçün Konstitusiya Referendumu keçiriləcək. Artıq dövlət başçısı Cənab İlham Əliyev tərəfindən müvafiq Sərəncam imzalanaraq, Konstitusiya Məhkəməsinə göndərilib. Konstitusiya Məhkəməsi bu barədə dünən müsbət qərarını verdi. Layihədə bir çox mütərəqqi dəyişikliklər öz əksini tapmaqdadır. Məsələn, təklif olunan layihədə ölkə rəhbərinə növbədənkənar prezident seçkiləri keçirmək hüququ da verilir. Belə seçkilərin keçirilmə müddəti isə 90 gündən 60 günə endirilir. Düşünürəm ki, bu da dəyişikliklərin növbəti mütərəqqi nümunələrindəndir. Belə ki, əgər əvvəllər prezident və parlament seçkiləri kampaniyası 3 ayı əhatə edirdisə, son illərdə Milli Məclisə seçkilərin müddəti üçdə-birə qədər azaldıldı və dövləti, vətəndaşları əlavə vaxt itkisindən azad edən bu dəyişiklik böyük razılıqla qarşılandı. Artıq bu müddətin prezident seçkilərinə də şamil olunması ölkə üçün taleyüklü prosesin qısa müddətdə yekunlaşmasına şərait yaradacaq.

Digər tərəfdən, daha bir amil bu kimi, idarəçilik formasının bir çox Qərb ölkələrində də reallaşdırıldığını görməkdəyik. Yeni prezidentlik müddətinin 7 ilədək artırılması təklifi də dünyada artıq geniş tətbiq edilən idarəçilik formasıdır. Təbii ki, Azərbaycan da dünya ölkələri içərisində sürətlə inkişaf edən bir dövlət kimi öz qanunlarını daha da demokratikləşdirməli, xalqın marağına cavab verən layihələri reallaşdırmalıdır. Düşünürəm ki, bəzi müxalifətyönlü siyasətbazların heç bir məntiqə sığmayan iddialarından fərqli olaraq, Prezidentin fəaliyyətinə nəzarət mexanizmi yüksək qanunçuluq və ictimai şəffaflıqla təmin olunduğundan, 7 il müddətinin uzun olması barədə fikirlər heç bir halda narahatlıq yarada bilməz. Xalqımız bu dəfə də vətəndaş-dövlət vəhdəti prizmasından çıxış edərək, müəyyən edilmiş vaxta qeyd edilən əlavə dəyişikliklərə yekdilliklə səs verəcək.

**_Rəfiqə KAMALQIZI_**



# Dövlət müşaviri III Beynəlxalq multikulturalizm məktəbinin iştirakçıları ilə görüşüb

**_Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə fəaliyyət göstərən "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" adlı III Beynəlxalq multikulturalizm məktəbi proqram üzrə iyulun 25-də öz işini Bakıda davam etdirib._**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev Mərkəzdə yay məktəbinin iştirakçıları ilə görüşüb.

Kamal Abdullayev tələbələri Multikulturalizm Mərkəzində salamlamaqdan məmnun olduğunu bildirib. Dövlət müşaviri 18-24 iyul tarixlərində Qəbələdə, İsmayıllıda, Şəkidə, Qaxda, Oğuzda, eləcə də Nic, Lahıc, İvanovka, Oğuzdakı "Yəhudilər məhəlləsi" kimi Azərbaycanın unikal multietnik bölgələrində fəaliyyət göstərən III Beynəlxalq multikulturalizm məktəbinin tələbələrin yaddaşında unudulmaz izlər buraxdığına inandığını deyib: "Mən çox şadam ki, Azərbaycana bu qədər gənc dostlarımız gəlib. Azərbaycanın etnik və dini müxtəliflik baxımından unikal bölgələrində çox maraqlı və mənalı günlər keçirdiyinizə inanıram. Bu günlər ərzində Azərbaycanın multikulturalizm modelini özündə ehtiva edən Qəbələ və ətraf bölgələrə getməklə siz yeni bir mədəniyyətin içərisinə daxil oldunuz, bu mədəniyyətin incəlikləri, maraqlı nüansları ilə yaxından tanış oldunuz və bildiyim qədər bu səfərlərdən razı qalmısınız. Deməli, multietnik bölgə olan Qəbələni III beynəlxalq multikulturalizm məktəbi üçün əsas məkan seçməkdə yanılmamışıq. III Beynəlxalq multikulturalizm məktəbi vasitəsilə Çin, İndoneziya, Almaniya, Polşa, Litva, Çexiya, Ukrayna, İsveçrə, Türkiyə, Bolqarıstan, Rusiya, Yunanıstan, Qırğızıstan, Gürcüstan və Yəmən olmaqla, 15 xarici ölkənin 16 nüfuzlu universitetindən 31 xarici tələbə, Azərbaycanın 12 tanınmış ali təhsil müəssisəsindən 19 azərbaycanlı tələbə indiyə qədər nəzəri şəkildə tanış olduğu Azərbaycan multikulturalizmini öz gözləri ilə görmək imkanı əldə ediblər.

Yay məktəbi ərzində tələbələr Azərbaycandakı dini və milli dəyərlərin təbliğinə və təşviqinə həsr olunan "dəyirmi masa", konfrans və toplantılarda iştirak edib, yerli alimlərlə yanaşı, ABŞ və İngiltərədən gəlmiş xarici mütəxəssislərin mühazirələrini dinləyiblər.

Çox şadam ki, Azərbaycana olan marağınız əyani tanışlıqdan sonra zamanla Azərbaycana sevgiyə çevrilir, bununla da yeni dostluqların, əməkdaşlıqların təməli qoyulur. Düşünürəm ki, əgər dostlarımız bizim inandığımız həqiqətləri bizdən əvvəl kiməsə deyib sübut edirlərsə, deməli, yanılmamışıq və biz dostlarımızı doğru seçmişik. Azərbaycan həm sevilən, həm də sevimli dostlarını unutmayan ölkədir. Azərbaycan öncəki yay məktəblərinin tələbələrinə olduğu kimi, sizə də ömrünüz boyu dost olmağı təklif edir. Burada hamı sizi çox sevib. Biz sizinlə bu dostluq əlaqələrimizi təkcə indi yox, həmişə davam etdirmək arzusundayıq. Bu multikulturalizm məktəbindən sonra Azərbaycan sizin hamınızın dostuna çevrildi və biz ömrünüz boyu sizin dostunuz olmağa hazırıq".

Sonra Litvadan olan tələbə Salomeya Lukaite və Yunanıstandan Dimitrios Asproulis onların öz təşəbbüsləri ilə yaratdıqları "Azərbaycanın gənc dostları" beynəlxalq klubunu təqdim ediblər. Sözügedən klubun üzvlüyündə indiyədək ölkəmizdə təşkil olunmuş beynəlxalq multikulturalizm məktəblərinin xarici tələbələri, eləcə də 13 xarici ölkədəki universitetlərdə Azərbaycan multikulturalizmi fənninin tədris olunduğu fakültələrin dinləyiciləri təmsil olunacaqlar. Təqdimatdan məlum oldu ki, bu klub üzvü olan hər bir xarici gənc üçün Azərbaycanda təhsil imkanları yaradacaq, onların ölkəmizlə bağlı aparacaqları tədqiqatlarda onlara yardımçı olacaq, Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsində hər bir klub üzvünə kömək göstərəcək. "Azərbaycanın gənc dostları" beynəlxalq klubunun yenicə fəaliyyətə başlayan internet saytı (www.youngfriends.az ) və bu saytda üzvlər üçün yaradılan imkanlar da diqqətə çatdırılıb.

Dövlət müşaviri Kamal Abdullayev belə bir klubun yaradılmasını yüksək dəyərləndirib və bu klubu yaradanlara təşəkkürünü bildirib. O qeyd edib ki, bu klub Azərbaycanın dünyada olan çoxsaylı dostlarını daha sıx birləşdirəcək və onların fəaliyyətinin daha sistemli edəcək: "Ümid edirəm ki, bu klub təkcə Azərbaycanın deyil, bütün dostsevər dövlətlərin və xalqların klubuna çevriləcək". Günün sonunda "İçərişəhərin sirləri" adlı gəzinti çərçivəsində tələbələr Qoşa Qala qapısı, Şirvanşahlar sarayı, Miniatür Kitab muzeyi və Qız qalasında olacaqlar. İyulun 26-da III Beynəlxalq multikulturalizm məktəbinin rəsmi bağlanış mərasimi keçiriləcək.

# Türkiyə mediası: çevriliş cəhdinin arxasından amerikalı general çıxdı



**_"Hadisədən iki gün əvvəl Nigeriyada olan amerikalı general Con Kempl ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin dəstəyi ilə, yerli bank şöbəsindən Türkiyədəki çevrilişçi əsgərlərin hesabına milyonlarla dollar pul yatırıb"_**

Türkiyədəki 15 iyul hərbi çevriliş cəhdinin arxasındakı xarici bağlantılar üzə çıxıb. "Yeni Şafak" qəzeti xəbər verir ki, ABŞ-ın Əfqanıstandakı sülh missiyasına rəhbərlik edən general Con Kempl (John F. Campbell) Türkiyədəki çevrilişin uğurlu olması üçün xuntaçıların hesabına külli miqdarda pul köçürüb. Qəzetin iddiasına görə, redaksiyaya məlumatı adının açıqlanmasını istəməyən yüksək rütbəli hərbçi ötürüb. Həmin şəxsin dediyinə görə, hadisədən iki gün əvvəl Nigeriyada olan amerikalı general Con Kempl ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) dəstəyi ilə yerli UBA (United Bank of Africa) bank şöbəsindən Türkiyədəki çevrilişçi əsgərlərin hesabına milyonlarla dollar pul yatırıb. "Əgər plan baş tutsaydı, Ərdoğan həbs olunacaq və general Kempıl birbaşa uçuşla Ankaraya gələcəkdi", - deyə "Yeni Şafak" qəzeti yazıb. Maraqlısı odur ki, hərbi çevriliş cəhdindən bir müddət öncə general Con Kempıl iki dəfə Ərzurum və Adanada bəzi türk hərbçilərlə gizli danışıqlar aparıb. Türkiyəyə göndərilən pul, ölkə içində 80 nəfərlik xüsusi qrupa aid fərqli hesablara köçürülüb. Həmin pullar CİA-in Türkiyədəki xüsusi adamları tərəfindən xuntaçılara çatdırılıb.

## “Dövlət-din münasibətlərini düzgün istiqamətləndirmək üçün qanunvericilik bazası təkmilləşdirilib”



“Azərbaycanda dövlət-din münasibətlərinin düzgün istiqamətləndirilməsi məqsədilə qanunvericilik bazası təkmilləşdirilib.” Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, bunu qurumun Kollegiya iclasında komitə sədrinin müavini Səyavuş Heydərov deyib. S.Heydərov hesabat məruzəsi ilə çıxış edərək, cari ilin 6 ayı ərzində DQİDK tərəfindən dini radikalizmlə mübarizə istiqamətində silsilə tədbirlər keçirildiyini diqqətə çatdırıb. O, radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərinə toxunub. Sədr müavini bildirib ki, son illərdə dövlət-din münasibətlərinin milli təhlükəsizlik və milli maraqlar baxımından düzgün istiqamətləndirilməsi məqsədilə mövcud qanunvericilik bazası təkmilləşdirilib, hüquqi aktlara zəruri əlavə və düzəlişlər edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səlahiyyətləri artırılmaqla əhali arasında genişmiqyaslı maarifləndirmə, qabaqlayıcı və profilaktik xarakterli tədbirlər keçirilir.

## Baş prokuror Şəmkirdə vətəndaşları qəbul edəcək



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov iyulun 29-da saat 09:00-da Şəmkir Rayon Prokurorluğunun inzibati binasında Şəmkir, Tovuz, Ağstafa, Qazax və Gədəbəy rayonlarında yaşayan vətəndaşların qəbulunu keçirəcək. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq. Qəbula gəlmək istəyən vətəndaşların qeydiyyatı və Şəmkir şəhərinə gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək. Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu vəcontact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

## II və III ixtisas qrupları üzrə qəbul imtahanının nəticələri elan edilib



Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) iyulun 23-də ali təhsil müəssisələrinə cari ilin məzunları üçün II və III ixtisas qrupları üzrə keçirdiyi qəbul imtahanının nəticələrini açıqlayıb. TQDK-dan AZƏRTAC-a bildiriblər ki, imtahanda iştirak etmiş abituriyentlər bu qurumun internet saytına daxil olaraq imtahan nəticələri və cavab kartlarının qrafik təsviri ilə tanış ola bilərlər.

Abituriyentlər imtahan nəticələrini, həmçinin mobil telefonla iş nömrələrini 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər. Nəticələrə əsasən, imtahanda iştirak etmək üçün sənəd vermiş 29.197 abituriyentdən 955 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən 28.242 abituriyentdən 22 nəfəri qaydaları pozduğu üçün imtahandan xaric olunub və nəticələri ləğv edilib.

İmtahanda II ixtisas qrupu üzrə iki abituriyent (Bakı şəhəri, İ.Hacıyev adına “Tərəqqi” liseyi və BDU-nun nəzdindəki Bakı Türk liseyinin məzunları), III ixtisas qrupu üzrə də iki abituriyent (Kürdəmir rayonu, 2 saylı şəhər orta məktəbi və Bakı şəhəri, 220 saylı məktəb-liseyin məzunları) onlara təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verib və maksimum nəticə - 700 bal toplayıb. İxtisas seçimi (həm əvvəlki illərin, həm də cari ilin məzunlarının) bütün ixtisas qrupları üzrə iyulun 29-dan avqustun 10-dək aparılacaq.

# Azərbaycan elmi ölkəmizin inkişafına öz töhfəsini verir

*Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadədir*

***- Akif müəllim, müasir dövrümüzdə Azərbaycan ictimai-siyasi, iqtisadi-mədəni, sosial sahələrdə yüksək inkişaf mərhələsini yaşayır. Bu istiqamətdə həyata keçirilən dövlət siyasətini necə xarakterizə edərdiniz?***

- Ölkədə elm və təhsilin inkişafında yaranmış keyfiyyətcə yeni mərhələnin reallıqları və həyata keçirilən islahatlar Azərbaycan Milli Elmlər Akademiyasına da öz müsbət təsirlərini göstərməkdədir. Bu gün Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq, ölkəmizin inkişaf dinamikasını sürətləndirirlər. Bildiyiniz kimi, ötən ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə AMEA-nın 70 illik yubileyi qeyd olundu. Cənab Prezident yubiley tədbirində dərin məzmunlu nitq söylədi, Azərbaycan elminin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirdi.

Azərbaycan Milli Elmlər Akademiyası son yüz ilə yaxın müddət ərzində xalqımızın sosial-mədəni inkişafında olduqca mühüm rol oynamış, elmin inkişafına mühüm töhfələr vermişdir. İstər sovet dönəmində, istərsə də müstəqillik illərində akademiyanın inkişafında, nailiyyətlərin əldə olunmasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adını xüsusi qeyd etməliyik. Ötən əsrin 60-70-ci illərində Dahi Öndər Heydər Əliyevin bilavasitə, dəstəyi sayəsində akademiyanın maddi-texniki bazası gücləndirilmiş, kadr potensialı artırılmış, infrastrukturu müasir tələblər səviyyəsində təşkil edilmişdir. Ötən əsrin 90-cı illərində, ölkəmizin hər yerində olduğu kimi, akademiya da böyük çətinliklərlə üz-üzə qaldı. O vaxt hakimiyyətdə olan qüvvələr, hətta akademiyanın bağlanması təklifini belə irəli sürmüşdülər. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın tələbi və istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş nailiyyətlər Onun malik olduğu yüksək dövlətçilik və idarəçilik səriştəsinin məntiqi nəticəsi idi. Həmin dövrdə, bütün sahələrə olduğu kimi, elmin inkişafına da xüsusi diqqət ayrıldı. Ulu Öndər Heydər Əliyevin “İqtisadiyyat nə vəziyyətdə olursa-olsun, akademiya inkişaf etməlidir” fikrini ifadə etməsi AMEA-nın qorunub-saxlanılmasında və bu gün dünya elmi sırasında öz mövqeyini və yerini tutmasında böyük rol oynamışdır. Müasir dövrümüzdə Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezi-



denti Cənab İlham Əliyev, bütün sahələrdə olduğu kimi, AMEA-nın da maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialını artırılması, akademiyanın yeni-yeni binalarla təmin edilməsi, yeni institutların yaranması və s. istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. Akademiyanın Mərkəzi-Elmi Kitabxanasının və Milli Ensiklopediya Mərkəzinin yeni binalarının qısa zamanda tikilib istifadəyə verilməsi, Şamaxı Astrofizika Rəsədxanasının əsaslı təmir edilməsi ölkəmizdə elmin inkişafına yüksək diqqət və qayğının göstəricisidir.

Bilirsinizmi, hazırda dünyada elm əvvəlki dövrlərdən fərqli, tamamilə yeni məzmun kəsb edərək, xüsusi bir sosial fenomenə çevrilmişdir. İndi elmi-texniki tərəqqiyə və biliklərə əsaslanan innovativ fəaliyyət cəmiyyətin mövcudluğunu, təhlükəsizliyini, davamlı inkişafını şərtləndirən əsas amil kimi çıxış edir. Eyni zamanda, hər bir dövlətin sosial-iqtisadi, siyasi və mədəni inkişafının da əsas təminatçısı elmdir. Azərbaycanda da elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindəndir. Dəfələrlə bəyan edildiyi kimi, dövlətimizin əsas strateji inkişaf xəttini hakimiyyətlə intellektin, neft kapitalı ilə insan kapitalının, təbii resurslarla intellektual potensialın vəhdəti təşkil edir. İndi biz 70 illik zəngin elmi təcrübə işığında gələcək hədəflərimizə doğru addımlamalıyıq. Bir daha vurğulamaq istərdim ki, müasir dövr gələcək hədəflərə, məhz elmin, intellektin, zəkanın işığında nail olmağın mümkünlüyünü təsdiq edir. Bu mənada, Ümummilli Lider Heydər Əliyevin akademiya haqqında dediyi dahiyanə formul, “Akademiya Azərbaycan xalqının milli sərvətidir. Onu qoruyub-saxlamalıyıq” tamamilə yeni məzmun kəsb edir. Milli sərvət statuslu akademiyanı həm də ona görə qoruyub-saxlamalıyıq ki, müasir dövrdə bu mənəvi sərvətin intellektual-mənəvi dividendi hesabına strateji oriyentrləri dəqiq müəyyənləşdirməyi bacaraq, necə deyərlər, hardan gəldiyimizi bilməklə yanaşı, hara yön aldığımızı da dəqiq müəyyənləşdirə bilək.

***- Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda alimlər qarşısında bəzi məsələləri qaldırdı və müstəqillik dövrünə həsr olunmuş sanballı elmi əsərlərin yaradılmasını da tövsiyə etdi. Yaxın gələcəkdə belə əsərlərin yazılması nəzərdə tutulubmu?***

- Cənab Prezidentin müəyyən etdiyi hədəflər, qaldırdığı problemlər və qarşıya qoyduğu vəzifələr bizim gələcək fəaliyyət proqramımızın əsasını təşkil edir. Bu prioritetlər hazırlanmaqda olan Azərbaycan elminin inkişaf doktrinasında öz əksini tapacaqdır. Prezident yubiley tədbirində çıxışında fundamental, tədqiqi elmin, kosmik tədqiqatlardan tutmuş aqrar elmlərə qədər bütün bu və ya digər istiqamətdə aparılan tədqiqatları təhlil edərək, Azərbaycan alimləri qarşısında mühüm vəzifələr qoydu, çağırışlar etdi. Həmin çıxışdan sonra AMEA-nın Rəyasət Heyətinin iclasında Cənab Prezidentin müəyyənləşdirdiyi prioritet vəzifələr geniş müzakirə olundu, müvafiq qərarlar qəbul olundu. Hazırda həmin qərarların icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilməkdədir. Həyata keçirilən tədbirlərin mühüm istiqamətlərindən birini innovativ fəaliyyətin genişləndirilməsi təşkil edir. Bu baxımdan, Akademiyanın Tərcübə-Sənaye Zavodunda görülən işləri, xüsusilə qeyd etmək istərdim. Burada elmi fəaliyyətin nəticəsi kimi əldə olunan yeniliklər olduqca uğurlu bir şəkildə praktikaya tətbiq olunur.

Həmçinin, Cənab Prezident humanitar elmlərlə bağlı fikirlərini söyləyərək, Azərbaycan dilinin saflığının qorunması, Azərbaycan həqiqətlərinin dünya ictimayyətinə çatdırılmasında tarixçilərin rolu və s. məsələlərə toxundu. Bu məsələlər də akademiyada müzakirə olundu. Onu da vurğulamaq istərdim ki, il bütün xalqımız Azərbaycanın dövlət müstəqilliyinin 25 illik yubileyinə hazırlaşır. Akademiya bu münasibətlə “Azərbaycan müstəqilliyi - 25” monoqrafiyasını hazırlayıb və bu yaxınlarda çapa veriləcək. Burada müstəqillik illərində akademiyanın keçdiyi şərəfli yol işıqlandırılıb.

***- Siz çıxışlarınızda dəfələrlə vurğulamısınız ki, akademiyada həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini elm və təhsilin inteqrasiyası təşkil edir. Məhz sizin islahatların nəticəsi olaraq akademiyanın tarixində, ilk***

# Azərbaycan elmi ölkəmizin inkişafına öz töhfəsini verir

*Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadədir*

***dəfə olaraq magistratura təsis olunub. Bilmək istərdik ki, bu elmin inkişafına hansı töhfələrini verəcək?***

- Bu gün akademiyada elm və təhsilin inteqrasiyası konseptual xarakter daşıyır. Məlum olduğu kimi, akademiyada illərlə formalaşmış böyük elmi potensial, müxtəlif elmi istiqamətlər üzrə çoxsaylı mütəxəssislər, müasir elmi avadanlıq və cihazlarla təmin olunmuş laboratoriayalar mövcuddur. Bu potensialın ölkə səviyyəsində səmərəliliyini artırmaq üçün elmlə təhsilin inteqrasiyasına böyük ehtiyac vardır. Alimlərimiz təhsil prosesində iştirak etməli, auditoriyalara üz tutmalı, tələbələrimiz isə elmi təhlil və təcrübələrin aparıldığı laboratoriyalara gəlməlidirlər. Təhsilin tələbləri elmi araşdırmalarda öz əksini tapmalıdır. Elmin tələbləri isə yetişməkdə olan gənc nəsildə formalaşdırılmalıdır. Bu gün biz alimlərin pedaqoji prosesdə yaxından iştirakında maraqlıyıq. Həqiqətən də, bu gün püxtələşmiş alimlərimiz öz təcrübələrini universitet auditoriyalarında gənc nəslə öyrətməkdədirlər. Biz bu prosesi daha da təkmilləşdirmək məqsədilə konkret addımlar da atmışıq. Artıq bu gün akademiyada çoxsaylı baza kafedrası fəaliyyət göstərir. Bu kafedralar universitetlərdəki kafedraların elmi mütəxəssislərlə daha yaxşı təmin olunmasına, təcrübə və nəzəriyyənin bölüşdürülməsinə geniş imkanlar yaradır. Bu isə, bizə akademiyada magistratura təhsil pilləsini təşkil etməyə imkan yaratdı. Artıq bu il akademiyada magistraturaya 57 nəfər qəbul həyata keçirilmişdir. Biz bununla gənclərin elmə daha erkən cəlb olunmasına nail olmaq istəyirik.

Mən Azərbaycan Alimlərinin I Qurultayındakı məruzəmdə qeyd etmişdim ki, biz gələcək alimi orta məktəblərdən seçməli və yetişdirməliyik. Bu gün təhsil prosesində tətbiq olunan kurikulum proqramı da, əslində dünyanın müasir çağırışları zəminində meydana çıxmışdır. Burada əsas məqsəd şagirdlərdə ilkin tədqiqat, araşdırma vərdişlərini aşılamaqdır ki, bu da gənclərdə elmi araşdırmalara marağın yaradılmasına imkan verir. Çox sevindirici haldır ki, artıq Azərbaycan təhsilində də bu proses uğurlu şəkildə gedir və heç şübhəsiz ki, yaxın gələcəkdə biz bunun müsbət nəticələrinin şahidi olacağıq.

***- Azərbaycan elmi inkişaf yolundadır. Amma elmin inkişafı haqqında danışarkən, bilməliyik ki, uzun illər sovet dövlətinin tərkibində qapalı olmuşuq. İndi isə Azərbaycan elmi dünyaya inteqrasiya edir, beynəlxalq əməkdaşlıq daha da genişlənir.***

- Təbii ki, akademiyada aparılan islahatlar içərisində beynəlxalq əlaqələr də mühüm yer tutur. Əlbəttə, Azərbaycan elminin beynəlxalq əlaqələri hər zaman olmuşdu. Amma bu gün zamanın tələbi tamamilə başqadır. İndi qloballaşan və virtuallaşan dünyada hər bir ölkənin elmi potensialının inkişafı inteqrasiyadan, bilavasitə asılıdır. Hazırda Elmlər Akademiyası Avropa alimləri, Amerika alimləri ilə olduqca effektiv əlaqələr qurub, İtaliya, Fransa, Almaniya kimi ölkələrlə müştərək elmi laboratoriyalar yaratmışdır. AMEA xarici ölkələrin elmi müəssisələri ilə müntəzəm əlaqə saxlayır, elmin müasir problemlərinə və elmin təşkilinə dair əcnəbi alimlərlə fikir mübadiləsi aparır. Akademiyanın alimləri beynəlxalq elmi qurultay, konqres və simpoziumlarda elm və texnikanın aktual problemlərinə dair məruzələrlə çıxış edirlər.

Müasir dövrdə sivilizasiyalararası dialoq prosesinin sürətləndiyi zamanda, tolerantlıq və multikulturalizm məsələləri xüsusi aktuallıq kəsb edir. Cənab Prezident İlham Əliyevin məlum Sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan olunub. Bu, onu göstərik ki, Azərbaycan multikultural dövlət olaraq dünyaya açıqdır və dünyanın hər bir ölkəsi ilə qarşılıqlı əməkdaşlıq edir, öz imicini qorumaqla başqa xalqlara da hörmətlə yanaşır. Sülh, əmin-amanlıq, sabitlik adası kimi tanınan Azərbaycan bütün dünyaya tolerantlıq, multikulturlizm modelini təqdim edir. Qardaşlıq və birgə yaşamaq modelini bəyan edir. Cənab İlham Əliyevin bəyan etdiyi kimi, "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, ictimai sifarişdir. Çünki bu, bizim üçün normal həyat tərzidir". Mən həmişə deyirəm ki, çiçəklən doğma Azərbaycan, qoy sülh bərqərar olsun bu gözəl diyarda. Biz isə Azərbaycan elmini, Azərbaycan həqiqətlərini öz elmimizlə şöhrətləndirək. Bu əmin-amanlıq, sabitlik olmasa, iqtisadi inkişaf olmasa, elmi-tədqiqatdan söz açmaq belə olmaz. Siz diqqət yetirin, müasir dünyamızda irqi, dini zəmində ayrı-seçkilik, qarşıdurmaların yarandığı, ictimai-siyasi vəziyyətin gərgin olduğu zamanda, Azərbaycanda sabitlik və əmin-amanlıq hakimdir. Bu, əlbəttə ki, Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin nəticəsində mümkün olmuşdur. Hər il Azərbaycana gələn qonaqların sayı artmaqdadır. İndi doğma Bakımızda xeyli sayda simpozumlar, konfranslar, beynəlxalq görüşlər keçirilir, Nobel mükafatı laureatları ölkəmizə dəvət olunurlar. Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, ilk Avropa Oyunları, "Formula-1" və onlarla belə tədbirlər son illərdə ölkəmizi dünya ictimaiyyətinin diqqət mərkəzinə gətirmişdir. Bütün bu tədbirlərin təşkili ölkəmizin beynəlxalq aləmdə imicinin artmasının, Azərbaycana olan inamın və etimadın güclənməsinin ifadəsidir. Bütün bu tədbirlərin davamı olaraq, cari ilin sentyabr ayında ənənəvi 5-ci Beynəlxalq Humanitar Forum keçiriləcək. Dünya alimləri yenidən Bakıya toplaşacaq, Azərbaycan həqiqətləri ilə bir daha yaxından tanış ola biləcəklər. Bu, Azərbaycanın dünyaya bəyan etdiyi sülh və barış, dostluq və qardaşlıq mesajlarıdır.

***- Akif müəllim, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilməsi barədə Sərəncamı ilə bağlı fikirlərinizi bilmək istərdik.***

- Ulu Öndərin siyasi kursunu böyük müdrikliklə davam etdiren Prezident Cənab İlham Əliyev onu yeni dövrün tələblərinə uyğun tərzdə zənginləşdirərək, ölkənin müasir dövlətə çevrilməsinə və tam müstəqil siyasət yürütməsinə nail olmuşdur. Ötən illərdə respublika iqtisadiyyatında islahatlar kursu davam etdirilmiş, regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına xidmət edən mühüm addımlar atılmışdır. Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə yüksələrək, müasir çağırışlara tam cavab verir. Dünyada gedən siyasi proseslər, müasir dövlət idarəçiliyi, iqtisadi islahatlar, insan hüquqlarının qorunması, dövlətin təhlükəsizliyinin təminatı və s. ölkənin konstitusiyasını da yeniliklərə uyğunlaşdırmağa sövq edir. Mən qeyd etdiyiniz Sərəncamla məmnunluqla tanış oldum. Hesab edirəm ki, bu, Azərbaycanda aparılan demokratik islahatların, bir model kimi inkişafının yeni mərhələsidir. Cənab Prezidentin bu Sərəncamı hərtərəfli düşünülmüş sənəddir. Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı Referendum Aktı müasir zamanın tələbinə hesablanmış təkliflərdir. Cənab Prezident tərəfindən irəli sürülmüş Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı Referendum Aktı ölkəmizi daha da müstəqil, demokratik, müasir və təhlükəsiz dövlətə çevirəcək. Heç şübhəsiz ki, Azərbaycanın yeni bir mərhələdə dinamik inkişafına təməl olacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Deputat: "Dəyişikliklər Azərbaycan gəncliyinə daha geniş imkanlar yaradacaq"



"Azərbaycan Prezidenti İlham Əliyevin konstitusiyaya təklif etdiyi dəyişikliklər zamanın tələbidir və zərurətdən yaranıb". Bunu SİA-ya açıqlamasında millət vəkili Aytən Mustafayeva deyib. O bildirib ki, təklif olunan dəyişikliklər Azərbaycan xalqına daha geniş imkanlar yaratmağa hesablanıb: "Cənab Prezidentin konstitusiyaya təklif etdiyi dəyişikliklər insan hüquqlarının daha da genişləndirilməsinə yönəlib. Bu dəyişikliklər Azərbaycan gəncliyinə daha geniş imkanlar yaradacaq və onaların inkişafı üçün böyük stimul olacaq. Bu gün Azərbaycan gəncliyi aktivdir. Onlar ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayırlar. Ölkəmizdə gənclər üçün böyük imkanlar yaradılıb. Təklif olunan dəyişikliklər də onların özlərini həyatda göstərməsi üçün daha geniş şəriat yaradacaq".

## Bank VTB (Azərbaycan) müştərilərinə yuanla xidmətlər təklif edir

Bank VTB (Azərbaycan) müştərilərinə çin valyutası - yuanla hesablaşma-kassa xidmətləri təklif edir. Bankın müştəriləri həm çin yuanı ilə hesabın açılması və hesaba xidmət göstərilməsi, həm də pul köçürmələri xidmətindən istifadə edə bilər. Hesabın açılması və hesaba xidmət üzrə müştərilərdən komissiya tutulmur, pul vəsaitlərinin köçürülməsi isə sərfəli tariflər ilə təklif olunur.

Yuan ilə pul vəsaitlərinin köçürülməsi əməliyyatları yalnız nağdsız şəkildə həyata keçirilir. Bu halda pul vəsaitlərinin köçürülməsi üçün müştərilərdən bank pulu yuanda yox, manat, rubl və sərbəst konvertasiya edilən valyutada qəbul edir və onların çin valyutasına mübadiləsini həyata keçirir. Digər bankdakı, eləcə də VTB qrup daxilindəki hesaba köçürməyə görə komissiya köçürülən məbləğin 0,5%-ni (minimum 100 -maksimum 500 yuan) təşkil edir. Təcili köçürmə üzə komissiya məbləği 200 yuan təşkil edir. Qeyd edək ki, VTB (Azərbaycan) Çində də banka sahib olan Rusiyanın aparıcı maliyyə qrupuna daxildir. Bu isə pul köçürmələrini qısa müddət ərzində və sərfəli şərtlərlə həyata keçirməyə imkan verir. "Hazırda Çin iqtisadiyyatı dünyada ən iri iqtisadiyyat hesab olunur. Bu bazara Azərbaycan iş adamlarının da marağı günbəgün artır. Buna görə də biz maksimal dərəcədə rahat və sərfəli hesablaşma-kassa xidmətləri təklif etməyə çalışırıq. Bu gün VTB (Azərbaycan) ölkədə çin yuanında xidmət təklif edən yeganə bankdır"- deyə bank VTB (Azərbaycan)-ın idarə heyətinin sədri YuriYakovlev bildirib. Bank VTB (Azərbaycan)-da çin yuanından başqa rubl,dollar, avro və funt sterlinqdə hesablaşma-kassa xidmətləri təklif edir.

## Azərbaycanda bir dərmanın dövlət qeydiyyatı ləğv edilib



Azərbaycanda bir dərmanın dövlət qeydiyyatı ləğv edilib. Trend Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin saytına istinadən bildirir ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 23 iyun 2016-cı il tarixli 159-S nömrəli sərəncamı ilə Macarıstanın "EGİS Pharmaceutical PLC" şirkətinin istehsalı olan "Bioparox" adlı aerozol dərman vasitəsində (Qeydiyyat vəsiqəsi: DV № 15-00640) yüksək risk və ciddi allergik reaksiyalar aşkar olunub. Bununla əlaqədar həmin dərman vasitəsinin dövlət qeydiyyatı ləğv edilib.

# Xalq daha mütərəqqi gələcəyə dəstək verəcək!

## *Muxtar Nağıyev: "Prezident İlham Əliyevin növbəti mütərəqqi islahatlar təşəbbüsü dövlət quruculuğu prosesinə, Azərbaycanın inkişafına, müstəqilliyin möhkəmlənməsinə daha etibarlı zəmin formalaşdıracaq"*

***Bəlli olduğu kimi, Prezident İlham Əliyevin Sərəncamına əsasən, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsi Konstitusiya Məhkəməsinə göndərilib. Belə ki, dövlət idarəçiliyinin daha səmərəli və keyfiyyətli fəaliyyətinin təmininə yönələn bu layihə bir daha təsdiq edir ki, konstitusiya dəyişiklikləri müasir şəraitdə dünyanın ən müasir və modern tələblərini özündə birləşdirir.***

Məsələ ilə bağlı SİA-ya açıqlama verən Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı sədrinin birinci müavini Muxtar Nağıyev bildirdi ki, ilk öncə, bu faktor, bilavasitə Azərbaycanda yeni ictimai-siyasi, iqtisadi və sosial islahatlara tərəf atılan mütərəqqi addımdır. Belə ki, ölkə rəhbəri İlham Əliyev Cənabları hələ bu ilin əvvəlində 2016-cı ilin dərin islahatlar dövrünə qədəm qoyduğunu vurğulamışdı: "Bu baxımdan, belə qənaətə gəlmək olar ki, Azərbaycan daim yenilik, müasirlik yolunu tutur. Bundan öncə də keçirilən referendumların hər biri, məhz həmin amili ehtiva edib. Məhz 21 il öncə ümumxalq səsverməsiylə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ötən müddət ərzində iki dəfə dəyişikliyə məruz qalıb. 2002-ci ilin 24 avqustunda konstitusiyanın 22 maddəsinə 31, 2009-cu ilin 18 martında isə 29 maddəyə 41 əlavə və dəyişiklik referendum yolu ilə hüquqi qüvvəyə minib. Yeni həqiqətən də, ötən müddət ərzində ölkədə bu sahədə mühüm qərarlar qəbul edilmiş, demək olar ki, köklü dəyişiklər aparılmışdı. Belə məqsədyönlü tədbirlərin nəticəsi olaraq, qlobal böhranın fəsadlarının aradan qaldırılmasına, əsasən, nail olunmuş, əhalinin sosial müdafiəsinin təminində çətinliklərə rast gəlinməmiş, maliyyə durumunda sərt təsirlər yaşanmamışdı. Son aylarda həyata keçirilən sosial-iqtisadi islahatların ilkin nəticələri uğurlu olmuş və ölkə rəhbəri bu prosesi "böhran şəraitində inkişaf" kimi dəyərləndirmişdi. Ona görə də xalq daim inkişafa, tərəqqiyə səs verib. Növbəti referendum layihəsini də eyni halda səciyyələndirmək lazımdır. Azərbaycan xalqı da yaxşı bilir və dərk edir ki, dövlətimiz xalqımızın daha firavan, daha xoşbəxt yaşaması üçün bu cür nütərəqqi ideya və layihələri reallaşdırır".



Muxtar Nağıyev, eyni zamanda bildirib ki, Azərbaycan dövləti sosial-iqtisadi inkişafı hər zaman hüquqi-siyasi təkmilləşmə və demokratikləşmə ilə paralel aparıb. Belə ki, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinin ilkin şərhi də, onu deməyə əsas verir ki, son sosial-iqtisadi islahatların davamı artıq dövlət quruculuğunun hüquqi-siyasi istiqamətində də aparılacaq: "Dövlət başçımız İlham Əliyev Cənabları tərəfindən rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə göndərilən layihə olduqca əhəmiyyətli, ən əsası isə idarəçilikdə yeni məqamları özündə ehtiva edir. Hərbidən sosial-iqtisadi yönümə, hüquq və azadlıqlardan sahibkarlıq fəaliyyətinə, qanunverici hakimiyyətdən ali icra strukturunda yeni yüksək postun yaranmasınadək çoxsaylı sahələrə aid dəyişikliklər və əlavələr müsbət rəy verildiyi təqdirdə, ümumxalq səsverməsinə çıxarılacaqdır".

YAP funksionerinin fikrincə, ümumiyyətlə, konstitusiya dəyişiklikləri və bu istiqamətdə baş tutan referendumlar, xüsusilə son onillikdə bütün dünyada geniş miqyas alıb ki, həmin faktorun Azərbaycanda da reallaşdırılması zərurətə çevrilib: "Düşünmək olar ki, Azərbaycanın əsas qanunvericiliyində bir sıra müddəalarda dəyişiklikləri zəruri edən səbəblər kifayət qədərdir. Ümumiyyətlə, bu tipli dəyişikliklər bütün dövlətlər üçün xarakterikdir və onlar, mütəmadi olaraq bu təcrübədən istifadə edirlər. Qlobal miqyasdakı yeni sosial-siyasi və hüquqi yönümlü çağırışlar, təhlükəsizlik məsələlərinin ön plana çıxması, dövlət idarəçiliyinin daha müasir və effektiv trendlərinin geniş yayılması hər bir ölkənin öz çoxspektrli fəaliyyət metodlarında daha mükəmməl yenilikləri təşviq etməsinə zərurət yaradır.

Digər tərəfdən, demokratikləşmənin geniş vüsət alması, insan hüquq və azadlıqlarının təminində bütün məhdudiyyətlərin ləğvi, xalq-hakimiyyət ünsiyyətinin hər cür maneələrdən azad olunması, ən əsası isə, dövlətin vətəndaşlarına daha səmərəli və keyfiyyətli xidmət göstərməsi kimi mühüm proseslərin fonunda qanunvericilik bazasının daim yenilənməsi, həmçinin konstitusiyalara vacib əlavələrin edilməsi mütləq zərurət kimi ortaya çıxır".

YAP Səbail rayon təşkilatının sədr müavini onu da xatırladıb ki, təklif edilən layihəyə görə, Əsas Qanuna 29 dəyişiklik nəzərdə tutulur. Bu dəyişikliklərin təsir dairəsi və istiqaməti barədə yuxarıda qeyd etdik. Xüsusi vurğulanası məqam ölkədə yeni ali səlahiyyət postunun - vitse-prezidentlik vəzifəsinin təsisidir. Təklifə görə, Birinci vitse-prezidenti və vitse-prezidentləri ölkə rəhbəri vəzifəyə təyin edir, yaxud azad edir. Vitse-prezidentlik institutu ölkəmiz üçün yeni olsa da, dünyada geniş tətbiq olunur. Azərbaycanda ali mərkəzi hakimiyyət mənsublarının sayının artırılması dövlət idarəçiliyində daha səmərəli fəaliyyəti təmin etməyə, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına, ümumilikdə isə yeni çevik, effektiv icraçılıq funksiyasının yaranmasına rəvac verəcək. O cümlədən, Prezidentin öz səlahiyyətlərini icra edə bilməməsi təqdirində, bu vəzifənin icrası əvvəllər Baş nazirə keçirdisə, indi bu iyerarxik silsilədə öncə Birinci vitse-prezident və vitse-prezidentlər olacaq. Artıq belə hesab etmək olar ki, referendumun qəbul olunacağı təqdirdə, dövlət idarəçiliyi institunda köklü dəyişikliklərə start verilməklə yanaşı, məsuliyyət artacaq, xalqa xidmətin effektliyi isə daha da yüksəldiləcəkdir".

Muxtar Nağıyev son olaraq daha bir məqama da toxunaraq, deyib ki, hər zaman olduğu kimi, bu dəfə də bəzi qaragüruhçu "qüvvələr" əllərinə düşən girəvədən öz şəxsi mənafeləri və ambisiyaları üçün yararlanmağa cəhdlər göstərirlər: "Fikir versək, görərik ki, özləri arasında siyasi statuslarını bölüşdürə bilməyənlər, "ana müxalifətçilik" uğrunda 23 ildir ki, bir-birlərini əzib-tapdalayanlar, düşmən kəsilənlər indi bir ağızdan referendum əleyhinə kampaniya başladacaqlarını, guya bu ideyanı boykot edəcəklərini iddia edirlər. Lakin bir dəfə də olsun dönüb öz keçmişlərinə, seçkilərdə sərgilədikləri qarşılıqlı münasibətlərinə baxmırlar. Bu, o kəslərdir ki, xalqın marağı onlar üçün dəyərsizdir, qiymətsizdir. Ona görə də indi guya "birləşib" anti-referendum kampaniyasına start verirlər. Halbuki onların ümid bəslədikləri xarici havadarları da artıq belə dırnaqarası müxalifətə ciddi yanaşmır, onları siyasi hadisələrdən öz məqsədləri üçün yararlananlar qismində aid edirlər. Hesab edirəm ki, belə qaragüruhçular 23 ildir, necə öz yerlərində sayırlarsa, bundan sonra da saymaqda davam edəcəklər. Xalq isə kimin-kim olduğunu yaxşı bilir. Ona görə də belə siyasətbazlara ciddi baxmır. Sübut isə budur - Prezident İlham Əliyevin növbəti mütərəqqi islahatlar təşəbbüsü dövlət quruculuğu prosesinə, Azərbaycanın inkişafına, müstəqilliyin möhkəmlənməsinə daha etibarlı zəmin formalaşdıracaq. Azərbaycan xalqı real olayların, refl gerçəkliyin tərəfdarı kimi təklif edilən konstitusiya dəyişikliklərini dəstəkləyir və biz bunu müəyyən ediləcək referendum gününü də görəcəyik".

**R.HÜSEYNOVA**

### Obamadan gecikmiş etiraf: ''Terrorizmin islama aidiyyəti yoxdur''



Ağ evdə prezidentlik müddəti bu ilin sonlarında başa çatacaq ABŞ Prezidenti Barak Obama, gecikmiş də olsa həqiqəti deməyə cəsarət tapıb. Məsələ burasındadır ki, Ağ evin hazırkı sahibi CBS telekanalına müsahibəsində Terrorizm anlayışının islam dininə heç bir aidiyyəti olmadığını dilinə gətirib. Bundan öncə Obama İŞİD-lə mübarizəni daha da sərtləşdirəcəyini bildirib. O, terrorizmi dünya üçün əsas bəlalarından biri adlandırıb.

### Çavuşoğlu: "Azərbaycan bizə güclü dəstək verdi"



Türkiyədə dövlət çevrilişinə cəhddən dərhal sonra gözlədiyimiz kimi, qardaş Azərbaycan bizə güclü dəstək verdi. Azərbaycanlı qardaşlarımız yalnız telefonlarla deyil, həm də atdıqları addımlarla Türkiyənin yanında olduqlarını bir daha göstərdilər. Qardaşlıq da məhz budur. Bir millət olmaq bunu tələb edir. Bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Habertürk" televiziyasına müsahibəsində deyib. Müsahibəsində, həmçinin Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması istiqamətində danışıqların son vaxtlar intensivləşdiyini vurğulayan M.Çavuşoğlu deyib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Rusiyanın, Minsk qrupu həmsədrlərinin təşəbbüsləri artıb. Bildiyimiz kimi, Sankt-Peterburqda Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirildi və bəzi təkliflər oldu. Biz bütün bu məsələlərdə hər zaman Azərbaycanın yanındayıq. Azərbaycana son səfərim zamanı qardaş ölkənin məsələnin həlli ilə bağlı qəbul edəcəyi bütün təklifləri dəstəkləyəcəyimizi və bəzi məsələlərdə birlikdə addımlar ata biləcəyimizi də müzakirə etdik".

### Sarkisyan hakimiyyəti tanınmış rəssamın qızını həbs etdi



Serj Sarkisyan hakimiyyəti kütləvi həbsləri davam etdirir. Belə ki, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları bir neçə saat əvvəl Yerevandakı qiyamçılardan biri, tanınmış rəssam Aşot Petrosyanın evinə basqın ediblər. Virtualaz.org-un xüsusi müxbiri Vahan Martirosyanın verdiyi məlumata görə, onlar məşhur sənətkarın qızı Tatevik Petrosyanı həbs ediblər. Ermənistan xüsusi xidmət orqanları son vaxtlar Yerevanda müqavimət hərəkatının iştirakçılarına qarşı yeni taktikadan istifadə edirlər. Onların ailə üzvləri, yaxın qohumları həbs olunur, girov saxlanılır və bundan qiyamçılara təzyiq vasitəsi kimi istifadə edilir.

### 18 yaşlı qız özünü niyə öldürmək istədi?



Bakıda intihara cəhd olub. Lent.az-ın məlumatına görə, iyulun 23-də Salamzadə küçəsi, məhəllə 1055-də yaşayan 1998-ci il təvəllüdlü Nurullayeva Şahsənəm Elman qızı Əziz Əliyev küçəsi 1-in qarşısında sağ qolunun damarlarını kəsərək intihara cəhd edib. O, Kliniki Tibbi Mərkəzə aparılıb. İlkin araşdırmadan sonar məlum olub ki, 18 yaşlı Ş.Nurullayevanın atası 1 il əvvəl vəfat edib və atasının yoxluğuna dözmədiyi üçün həyatına son qoymağa çalışıb. Araşdırma davam etdirilir.

# Türkiyə-Ermənistan sərhədləri açıla bilərmi?




***Türkiyədə fəaliyyət göstərən bir sıra qəzetlərdə belə bir iddia ortaya atılıb ki, guya yaxın vaxtlarda Türkiyə-Ermənistan sərhədləri açılacaq. Şübhəsiz ki, Azərbaycanla qardaş dövlət olan Türkiyənin belə bir addım atması heç bir halda inandırıcı görünmür. Zaman-zaman müəyyən maraqlı qruplar Türkiyə-Ermənistan sərhədlərinin açılacağı ilə bağlı iddiaları mətbuatın gündəminə gətirsələr də, sonda nəticə onlar üçün ürəkaçan olmayıb. Bundan başqa, dünyanın ən yüksək kürsülərindən Azərbaycanın haqq səsini, Ermənistanın işğalçı olduğunu bəyan edən Türkiyənin Ermənistanla sərhədləri açması elə iki qardaş dövlət arasındakı münasibətlərə xələl gətirmək məqsədi güdür.***

Konfliktoloq Elşad Quliyev bu məsələnin real olmadığı qənaətindədir: "Hesab etmirəm ki, sərhədlər açıla bilər. Müəyyən qruplar bu məsələni ona görə ortaya atıblar ki, son vaxtlar Türkiyə-Rusiya arasında yaxınlaşma müşahidə olunur. Lakin Türkiyə istənilən halda Azərbaycanın maraqlarını tapdalamaz. Bu, bir halda baş verə bilər ki, Ermənistan işğal etdiyi torpaqları azad etsin. Əvvəla, Türkiyədə baş verən son hadisələr olduqca həssas məqamdır. Belə bir məqamda Ermənistan kimi terrorçu bir dövlətlə sərhədləri açmaq heç də dövlətçilik mənafeyinə uyğun addım ola bilməz. Digər tərəfdən, Türkiyə-Rusiya münasibətlərinin yaxınlaşmasından öz məqsədləri üçün istifadə edən qüvvələrin gücü çox azdır. Onlar Türkiyə dövlətinin iradəsinə qarşı çıxa bilməzlər".

Politoloq Ülvi Məmmədov da hesab edir ki, Türkiyə-Ermənistan sərhədlərinin açılması prosesi uzunmüddətli bir məsələdir və bunun baş tutması üçün Sarkisyan şərtləri yerinə yetirməlidir: "O şərtlərdən ən başlıcası, Dağlıq Qarabağın işğaldan azad olunmasıdır. Eyni zamanda, Ermənistanın iddia etdiyi, gözü olduğu Türkiyə torpaqları var və Ermənistan bu iddialarından imtina etməlidir. Həmçinin, Türkiyə ilə Ermənistan arasında qondarma "erməni sıyqırımı" məsələsi bu gün də ürək bulandırmaqda davam edir. Həyasızcasına Türkiyə dövlətinə qarşı təxribatlar quran ermənilərin bu iddiası olan yerdə heç bir sərhəd açılmasından söhbət gedə bilməz. Türkiyə dövləti dəfələrlə bəyan edib ki, arxivlər açılsın və 1915-ci il tarixinə tarixçilər qiymət versin. Amma ermənilər bundan qorxdular. Hesab edirəm ki, bu informasiyanın yayılması Türkiyə üçün həssas olan belə bir məqamda qəsdən ortaya atılıb və düşünmürəm ki, sərhədlərin açılması üçün hər hansı bir formada təzyiqlər də işə salınmayıb. Sadəcə, qəbul etmək lazımdır ki, türk dövləti bu addımı atmaz".

*Samir*

# III Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçıları Oğuzda

***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər" adlı III Beynəlxalq Multikulturalizm Məktəbi proqrama əsasən, iyulun 24-də Qəbələdə öz işini davam etdirib.***

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Rus Pravoslav kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasından keşiş Konstantin Ata, Böyük Britaniya Yəhudi İcmasının rəhbəri Lourens Brassın iştirakı ilə BBMM-in Analitika şöbəsinin müdiri Nəriman Qasımoğlu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli "Azərbaycanda dini müxtəliflik" mövzusunda mühazirə oxuyublar. Mühazirədə Azərbaycan ərazisində qədim zamanlardan bəri müxtəlif dini etiqadların təşəkkül tapdığı vurğulanıb.

Tədbirdə diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər bir şəxs vicdan azadlığı hüququna malikdir. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır.

Müsəlman, xristian və yəhudi din nümayəndələri iştirakçıların onlara ünvanladıqları sualları cavablandırıblar.

Günün ikinci yarısında tələbələr Oğuz rayonuna səfər ediblər, "Yəhudi məhəlləsi"ndə olublar, Yuxarı və Aşağı Məhəllə sinaqoqlarını ziyarət ediblər.

Lourens Brass Yuxarı Məhəllə sinaqoqunda çıxış edərək, Azərbaycandakı tolerant mühit haqqında danışıb: "Burada sinaqoqları gəzərkən müsəlmanların yəhudiləri "Şalom" deyə salamladıqlarını, Şabat münasibətilə təbrik etdiklərinin şahidi oldum. Multikulturallıq və tolerantlıq ənənələrinin bərqərar olduğu bu ölkədə olmağımdan çox şadam. Azərbaycan öz tolerantlığı ilə bütün dünyaya nümunə olacaq ölkədir".

Günün sonunda Azərbaycan multikulturalizmi modelini öyrənən tələbələr milli çay süfrəsi ətrafında "Təşəkkürlər, Qəbələ!" adlı mədəni proqramla yay məktəbinin fəaliyyət göstərdiyi regiona minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, III Beynəlxalq Multikulturalizm Məktəbi növbəti günlərdə fəaliyyətini proqrama uyğun olaraq Bakıda davam etdirəcək.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Bu gün ölkə ərazisində yağış yağacaq



Azərbaycanda iyulun 26-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24° isti, gündüz 27-32° isti olacaq. Dəniz suyunun temperaturu Abşeron çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulbada 21-22°, Buzovna, Mərdəkan, Şüvələnda 22-23°, Türkan, Hövsan, Sahil və Şıxda 24-25° isti təşkil edəcək. İyulun 26-da və 27-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü, həmçinin iqlim normasına yaxın temperatur şəraiti meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Gecə 18-23° isti, gündüz 32-37° isti olacaq. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, həmçinin Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər və Daşkəsən-Gədəbəy rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15° isti, gündüz 18-23° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 27-32° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz və Qusar rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Yağıntının intensiv olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Gecə 14-19° isti, gündüz 21-26° isti, dağlarda gecə 9-14° isti, gündüz 15-20° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan və Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 28-33° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran və Astara rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının intensiv olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Gecə 22-24° isti, gündüz 27-32° isti, dağlarda gecə 13-18° isti, gündüz 20-25° isti olacaq.

## Bakı Ali Neft Məktəbi Anqola şirkəti ilə əməkdaşlıq edəcək



Azərbaycanda səfərdə olan, Anqolanın "Sonangol Hidrocarbonetos Internacional" şirkətinin prezidenti, baş icraçı direktoru Frederiko Ferraz Dominqos və onun müavini xanım Filomena Santos Oliveira ilə Bakı Ali Neft Məktəbində (BANM) görüş keçirilib. BANM-dan AZƏRTAC-a bildiriblər ki, ali məktəbin tarixi, fəaliyyət istiqaməti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verən rektor Elmar Qasımovla ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın əhəmiyyətindən söz açıb. Vurğulanıb ki, BANM-in tələbələri həm Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) müəssisələrində, həm də ölkəmizdə fəaliyyət göstərən beynəlxalq şirkətlərdə istehsalat təcrübəsi keçirlər. Rektor BANM-in əcnəbi tələbələrin qəbuluna başladığını, onların bu ali məktəbdə təhsil almaları üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. BANM-in beynəlxalq əlaqələrinin daim genişləndiyini və beynəlxalq işgüzar münasibətlərin qurulmasında maraqlı olduğu bildirilib. Vaxtilə Azərbaycanda təhsil aldığını qeyd edən Frederiko Ferraz Dominqos yenidən Bakıda olmağından məmnunluq duyduğunu söyləyib. O deyib ki, aradan keçən 20 ildən artıq müddətdə Bakı dəyişərək gözəlləşib və əsl Avropa şəhərinə çevrilib. Rəhbərlik etdiyi şirkət haqqında ətraflı məlumat verən qonaq şirkətin Anqola daxilində, habelə digər ölkələrdə həyata keçirdiyi layihələrdən, həmçinin şirkətin nəzdində fəaliyyət göstərən "Sonangol Academy" ilə BANM arasında əlaqələrin qurulması imkanlarından söz açıb. Qonaqlar BANM ilə əməkdaşlığın yaradılmasında maraqlı olduqlarını bildirib, tələbələrin suallarını cavablandırıblar. Sonda Frederiko Ferraz Dominqosa BANM-in "Fəxri qonaq" diplomu təqdim olunub.

## Politoloq: "Sarkisyan oyundan çıxmağa çalışır"



"Ermənistanda baş verən iğtişaşlar Sarkisyan və onun komandası tərəfindən qurulan siyasi şoudur. Burada məqsəd Rusiya və Qərbə guya müxalifətin bir sıra məqamlarla razılaşmamasını, o cümlədən Dağlıq Qarabağ məsələsində güzəştə getməmək tələbinin olmasını göstərməkdir". Bunu SİA-ya açıqlamasında politoloq Arzu Nağıyev deyib. O qeyd edib ki, Sarkisyan bu variantla Dağlıq Qarabağ münaqişəsində status-kvonu saxlamağa, danışıqlar prosesini uzatmağa və bundan vaxt qazanmağa çalışır: "Sarkisyan bununla özünün hakimiyyət müddəti bitdikdən sonra oyundan çıxmağa çalışır. Bunu da həm Qərb, həm Rusiya, həm də Azərbaycan yaxşı başa düşür. Sarkisyan Dağlıq Qarabağ separatçılarına müstəqillik söz versə də, bu gün ona əməl edə bilmir. O, özünün məhz bu proseslər üzərindən hakimiyyətə gəldiyini başa düşür və qorxur. Azərbaycan tərəfi də ciddi şəkildə şərtlər irəli sürür və status-kvonu aradan qaldırmaq istəyir. Bu məqsədlə öz təkliflərini dəfələrlə ATƏT-ə və digər maraqlı dövlətlərə təqdim edib". Politoloq bildirib ki, Jirar Səfilyan və onun tərəfdarları güclü siyasi dayaqları olan qüvvə və səbəb deyil: "Onlar sadəcə bəhanə kimi isitifadə edilən oyunçulardır. Qərb də dolayı yolla etirazçıları nəzarətdə saxlayır . Sarkisyanın onlarla görüşünə gəldikdə isə, bu, həmin oyunların məntiqi nəticəsi kimi qiymətləndirilə bilər. Digər halda etirazçıların lokallaşdırılması çoxdan baş tutardı".

# Qubada Milli Mətbuatın yaranmasının 141 illik yubileyi qeyd olunub




***Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının və Quba rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə 22 İyul Milli Mətbuatın yaranmasının 141 illiyi və "Səfər" qəzetinin 95 illik yubleyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları, ilk olaraq Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstəsi qoyaraq, əziz xatirəsini ehtiramla yad ediblər.***

Sonra YAP Quba rayon təşkilatının akt zalında yubiley tədbiri davam etdirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yığıncağı giriş sözü ilə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov açaraq Azərbaycan Milli Mətbuatının yaranma tarixindən və inkişaf mərhələlərindən danışıb: "Müstəqillik dövründə Azərbaycanda söz, fikir və mətbuat azadlığının təmin edilməsində Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri xüsusidir. Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə mətbuatın inkişafı, onun problemlərinin həlli, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb".

O, çıxışında Azərbaycan bölgə mətbuatının ilk qaranquşlarından olan rayonun tarix salnaməsini yaradan "Şəfəq" qəzetinin 95 illik tarixi və şərəfli yol keçdiyini diqqətə çatdırıb.

Tədbirdə millət vəkili Yevda Abramov, "Şəfəq" qəzetinin baş redaktoru Qəhrəman Qasımov və digərləri çıxış edərək, Azərbaycan mətbuatının xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə böyük töhfə verdiyini bildirərək, bu sahəyə dövlət tərəfindən ayrılan diqqət və qayğıdan söz açıblar. Sonda mətbuat sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup mətbuat işçisi fəxri fərmanlarla və hədiyyələrlə təltif olunub.

***NƏZAKƏT***

## 3484 keçmiş məhbusa birdəfəlik pul müavinəti verilib

Yanvar-iyun aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan 3 min 484 nəfəri birdəfəlik pul müavinəti ilə təmin edib. Nazirlikdən bildiriblər ki, müvafiq qanunvericiliyə uyğun olaraq həmin insanların hər birinə minimum əmək haqqının 4 misli məbləğində, yəni 420 manat məbləğində müavinət ödənilib. Eyni zamanda, həmin şəxslərdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanlarına iş üçün müraciət edən insanların kvota üzrə ayrılmış iş yerlərində məşğulluqlarının təmin edilməsi üçün müvafiq işlər görülüb. Nazirlik tərəfindən penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunmuş şəxslər üçün Qobustan rayonunda 50 yerlik Sosial Adaptasiya Mərkəzi də inşa etdirilir. Mərkəzin yaradılmasında məqsəd həmin şəxslərin sosial mühitə uyğunlaşdırılması və onlara müvafiq sahələrdə zəruri yardımların göstərilməsi, habelə onların sosial adaptasiyasının daha dolğun şəkildə dəstəklənməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsidir. Penitensiar müəssisələrdə cəza müddəti başa çatmaqda olan şəxslərin əmək bazarına çıxışının və gələcək məşğulluğunun dəstəklənməsi də diqqətdə saxlanılır. Keçən il və cari ilin ötən dövründə 200-dək belə şəxs üçün əmək bazarında tələb olunan peşələr üzrə hazırlıq kursları təşkil edilib.

## Səfirlik: Azərbaycan mediası olaylara Türkiyə xalqının və dövlətinin mənafeləri baxımından yanaşdı



Dünən Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hamit Karadeniz Azərbaycan Mətbuat Şurasında olub. Şuradan Trend-ə verilən məlumata görə, H.Karadeniz Azərbaycan milli mətbuatının 141 illiyi ilə bağlı Türkiyənin ölkəmizdəki səfirliyinin təbriklərini çatdırıb, bu günün Azərbaycan mediasının sağlam təməllər üzərində inkişafından məmnunluğunu bildirib. Mətbuat müşaviri mövcud xüsusda Türkiyədə baş verən dövlət çevrilişinə cəhd hadisəsinin Azərbaycanın kütləvi informasiya vasitələrində işıqlandırılması xüsusiyyətlərinə diqqət çəkib. O bildirib ki, Azərbaycan mediası olaylara Türkiyə xalqının və dövlətinin mənafeləri baxımından yanaşdı, obyektiv mövqe tutaraq öz dəstəyini əsirgəmədi. Buna görə təşəkkürünü ifadə edən H.Karadeniz onu da bildirib ki, iki qardaş ölkənin media qurumlarının ümumi məsələlərə belə həssas reaksiyası əhəmiyyətli və zəruridir. MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov XXI əsrdə dövlət çevrilişi hadisəsinin hər hansı geridə qalmış məmləkət üçün xarakterikliyini vurğulayıb: "Türkiyə kimi yüksək inkişafa malik ölkədə belə hal əsla yolverilməzdir. Görünür, bunu Türkiyəyə yaraşdıranlar olub. Ancaq xalqın qətiyyəti çevrilişin həyata keçməsini əngəllədi. Ölkənin siyasi elitası birləşdi və dövlətçiliyi qorudu. Ümumən çevriliş yolu ilə hakimiyyəti ələ keçirmək istəyi köhnə, bəsit təfəkkürün məhsuludur. Düşünürəm ki, həm bu məqamın təbliğinin, həm də xalqın demokratizmə sadiqliyinin ən gözəl nümunəsi Türkiyə mediasının da fəaliyyətinə sirayət etdi. Media lap başlanğıcdan xalqın demokratik seçimini dəstəklədi, hər hansı panikaya qapılmadan öz missiyasına sadiq qaldı, örnək oldu. Hesab edirəm ki, Azərbaycanın kütləvi informasiya vasitələri də məsələdə sadiqlik nümayiş etdirdilər. Onlar qardaş ölkədə yaşananlara dövlətçilik prinsiplərini, ortaq dəyərlərimizi, mənafelərimizi rəhbər tutaraq yanaşdılar. Bu, son dərəcə vacibdir". Görüşdə Azərbaycan və Türkiyə mediaları arasındakı əməkdaşlığın müxtəlif istiqamətləri ilə bağlı fikir mübadiləsi də aparılıb.

# Kinematoqrafçılar İttifaqı müsabiqə ELAN EDİR

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "YENİ NƏFƏS-II" adlı qısametrajlı ssenari müsabiqəsi elan edir.

**Məqsəd:**

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da, mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

**Şərtlər:**

· Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

· Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

· Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

· Ssenari orijinal, yəni, ekranlaşdırılmamış olmalıdır.

· Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

· Şrift Courier New, ölçü 12 tələb olunur.

· Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

· Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

· Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

· Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

· Ssenarilər 31 iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

· Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh. Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

**Qaydalar:**

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir. Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:

· Qran Pri - 3000 manat (Ekranlaşdırılması nəzərdə tutulub)



Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

"YENI NƏFƏS-II"

adlı qısametrajli ssenari müsabiqəsi elan edir.

*Məqsəd:*

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqədə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

*Şərtlər:*

•Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

•Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

•Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

•Ssenari orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.

•Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

•Şrift Courier New, ölçü 12 tələb olunur.

•Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

•Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

•Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

•Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

•Ssenarilər 31iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

•Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh.Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

*Qaydalar:*

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir.Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək.

Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:

•**Qran Pri – 3000 manat** (Ekranlaşdırılması nəzərdə tutulub)

•**I yer 2000 manat**

•**II yer 1500 manat**

•**III yer 1000 manat**

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

Əlaqə üçün:Tel: +99412 597-48-04
Fax: +99412 597-48-03
Mob:+99451 427-41-03
arki.2012@mail.ru

İnformasiya dəstəyi:

AZƏRTAC TREND Day.Az səs qəzeti Mədəniyyət KASPI

· I yer 2000 manat

· II yer 1500 manat

· III yer 1000 manat

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

***Əlaqə üçün: Tel: +99412 597-48-04***
***Fax: +99412 597-48-03***
***Mob: +99451 427-41-03***
***arki.2012@mail.ru***

İnformasiya dəstəyi:

"AZƏRTAC", "Trend", "Day.az", "Səs", "Mədəniyyət", "Kaspi" qəzetləri

# Avropa özünü necə qurbana çevirdi?

***Avropa ölkələrində, xüsusilə Fransada və Almaniyada baş verən ardıcıl terror aksiyaları artıq qoca qitənin siyasi analitiklərinin bir nömrəli mövzusuna çevrilib. Belə ki, baş verən terror hadisələri sadə avropalıların öz təhlükəsizliklərinə ümid etmədiklərini aşkar şəkildə göstərir. Baxmayaraq ki, xüsusi xidmət orqanları, kəşfiyyat və s. müvafiq qurumlar bir-biriləri ilə sıx təmasda olur, qarşılıqlı məlumatlar sayəsində önləyici tədbirlər planları hazırlayırlar, onların heç biri tam dəqiqliklərə əsaslanmır. Nəticədə, insanlar kütləvi şəkildə qətlə yetirilir, terror qurbanlarına çevrilirlər. Təəssüf ki, qanlı aksiyalar baş verəndən sonra günahkar axtarışlarına çıxışır, halbuki günahkarın özü terror hadisəsini törətdiklərini etiraf edirlər.***





## Üsəma bin Laden öldürüldükdən sonra təşkilatın tam məhvi üçün yenə də Yaxın Şərq kartından istifadə olunmağa başlandı

Qərb siyasi dairələrinin Yaxın Şərq və ərəb ölkələrində yürütdüyü uğursuz siyasəti nəticəsində yaranan, eyni zamanda danılmaz faktlar və iddialar var ki, yaradılan siyasiyönlü silahlı qrupların az sonra ciddi terror təşkilatlarına çevrilməsi də, demək olar ki, bu xüsusdandır. Məsələn, bir zamanlar "Əl-Qaidə"nin SSRİ-yə qarşı yaradılmasında ABŞ-ın rolunun olması barədə çoxsaylı tutarlı faktlar mövcuddur. Amma bu terror təşkilatı SSRİ dağıldıqdan sonra Qərbin qorxulu röyasına çevrildi. Başda ABŞ olmaqla, bir çox Avropa ölkələrində qanlı hadisələr törədən "Əl-Qaidə"nin lideri Üsəma bin Laden öldürüldükdən sonra təşkilatın tam məhvi üçün yenə də Yaxın Şərq kartından istifadə olunmağa başlandı.

## "İŞİD" "Ən Nüsrə"nin məhvi üçün yaradılmış terror təşkilatıdır

Bu gün Suriya və İraqda bir-birlərinə qarşı amansız düşmənə çevrilən iki beynəlxalq terror təşkilatı Ü "İŞİD" və "Ən Nüsrə" də məhz bu sıradandır. Sirr deyil ki, "Ən Nüsrə" terror təşkilatı özünü "Əl-Qaidə"nin ən böyük qanadı elan edib. İŞİD isə məhz Ən Nüsrənin məhvi üçün yaradılmış bir silahlı terror təşkilatıdır. Bu gün hər iki təşkilat bir-birləri ilə İraq və Suriyada silahlı qarşıdurmalar yaşasalar da, Avropada, ümumilikdə isə, Qərbdə regionları qorxu altında saxlamaqdan ötrü yarışa çıxıblar. Beləliklə, Qərb siyasi dairələrinin özləri tərəfindən yaradılan terror təşkilatları sonda qoca qitənin özünün də ciddi başağrısına çevrilmiş olur. Düzdür, istər Avropada, istərsə də ABŞ-da bu kimi iddialar rədd edilsə də, artıq dünyaya səs salmış və bir çox ifşaedici sənədləri ictimailəşdirmiş WikiLeaks saytı dəfələrlə reallıqları, əsl gerçəklikləri üzə çıxarıb. Hətta gizli kəşfiyyat orqanlarının "İŞİD"-in lideri Əbu Bəkr əl-Bağdadi ilə təmasları barədə də şok doğuran sənədlər, fotoşəkillər dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Məhz indi "İŞİD"-i günahkar kimi ortaya qoymaq dünya ictimaiyyətini məxsərəyə qoymaq kimi qiymətləndirilir. Çünki bir çox terror aktını törədən "İŞİD" həmin əməlini etiraf etməklə yanaşı, qanlı aksiyaların davamlı olacağı barədə ultimatumlar da verib. Yəni burada heç bir çətin siyasi tənlik yoxdur...

## Bu gün Suriyada Bəşər Əsəd hakimiyyətini devirmək istəyən qərblilər bunu belə izah etməyə çalışırlar ki...

"İŞİD"-in isə Avropanın mərkəzi ölkələrində qanlı aksiyalar törədəcəyi əvvəlcədən hər bir avropalı siyasi başbilənlərə bəlli idi. Hətta siyasətlə əlaqəsi olmayan istənilən şəxsə də bəlli idi ki, "İŞİD"-ə bu qədər geniş meydanın verilməsi, dünyanın ən güclü dövlətləri tərəfindən silah və pulla təmin edilməsi, nəhayət ki, "çanağın öz başlarında çatlamasına" gətirib çıxaracaq və çıxarmaqdadır! Bəli, Avropa və Qərb siyasəti özü-özünü terror girovuna çevirir, bunun isə bədəli çox ağır ödənilir.

Bu gün Suriyada Bəşər Əsəd hakimiyyətini devirmək istəyən qərblilər bunu belə izah etməyə çalışırlar ki, Suriya Ərəb Respublikasında mövcud hakimiyyət diktatura ilə yürüdülür, guya Bəşər Əsəd atası Hafiz Əsədin yolundan saparaq, tamamilə əks-siyasətlə xalqını əzir, məhv edir...

Amma bu, belədirmi? Əgər Suriyada baş verən hadisələrin ilk tarixlərinə nəzər salsaq, görərik ki, guya Bəşər Əsəd onun hakimiyyətini istəməyən insanların dinc nümayişlərini silah gücünə yatırır, müxalifətyönlü qəsəbə və kəndləri bombardman edir və s. Əlbəttə ki, bütün bunlar, məhz Qərbin həmin zamanlarda dünya ictimaiyyətinə sırıya bildikləri "faktlar" idi. Həmin vaxtlar nə "İŞİD" var idi, nə də Ən Nüsrə. Sonradan isə bəlli oldu ki, dinc nümayişləri güllələbaran edənlər, məhz Suriyaya sızdırılmış terrorçu qruplar idi. Onlar bununla Əsəd hakimiyyətini dünyaya qaniçən rejim kimi tanıtmaq üçün əməlli-başlı təlim keçmiş təxribat terror qrupları olublar.

Sonradan tarixlər boyu bir çox dini konfensiyaların, məzhəblərin birləşdiyi, sülh şəraitində yaşadığı, tarixi-ecazkar bölgələrə məxsus və tolerant ölkə kimi tanınan Suriyada mövcud hadisələrin ardı yaşandı və bu gün bu ölkə, təəssüf ki, dağıntılar altında inləyir. Ulu tarixi abidələr minalanaraq partladılır, insanlar vəhşicəsinə öldürülür, qul bazarları fəaliyyət göstərir. Bütün bunlar isə daha bir sarsıdıcı zərbə vurur, özü də islam adına! Sülhpərvər islam dini vəhşiliyi təbliğ edən din kimi avropalıların beyinlərinə yürüdülür. Baş verən terror hadisələri isə bunu "təsdiq" edir...

Lakin Qərb öz siyasətinin qurbanına çevrilməmişdən öncə min ölçüb, bir biçməliydi. Təəssüf ki, bu da baş vermədi. Bu gün terrorla mübarizə dünyanın bir nömrəli problemi kimi qalmaqdadır. Həmin istiqamətdə davamlı şəkildə terrora məruz qalmış ölkələr, xüsusilə ciddi fəaliyyət göstərirlər. Avropa hələ ki, baş verən bir neçə terror hadisəsindən sonra ayılmaq istəyində olduğunu göstərir. Amma terrorla mübarizədə hər zaman aktivlik nümayiş etdirmiş ölkələrin də rəyini öyrənmək onlar üçün pis olmazdı.

## Qarabağ məsələsində Qərb siyasətindəki ikili standartlar, bilavasitə terrora dəstək kimi görünür

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev dəfələrlə terrorla mübarizə ilə bağlı müzakirələrdəki çıxışı zamanı bildirib ki, ölkəmiz beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edir, Əfqanıstan koalisiya qüvvələrinin işinə qoşulan ilk ölkələrdən biri olub. Prezident İlham Əliyev, eyni zamanda, qeyd edib ki, Azərbaycan özü terrordan əziyyət çəkən ölkələrdəndir və bu terror Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin tərkib hissəsidir. Ermənistan terror təşkilatı tərəfindən Azərbaycanda törədilən terror aktları nəticəsində iki mindən çox Azərbaycan vətəndaşı həlak olub. Azərbaycan torpaqlarının işğalı məsələsinə toxunan Prezident İlham Əliyev həmçinin, vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi zəbt olunub. Azərbaycana qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. İşğal nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib, bir milyona yaxın soydaşımız öz doğma torpaqlarından didərgin düşüb. BMT Təhlükəsizlik Şurasının 20 ildən çoxdur ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan tərəfi indiyədək buna məhəl qoymur.

## Çünki məğlub olunan tərəf "xristian klubu"nun üzvü Ermənistan idi

Ancaq gəlin görək, Avropanın siyasi başbilənləri bu məsələdə necə davranırlar? Xalqımız dəfələrlə şahidi olub ki, Ermənistanın terrorçu və işğalçı ölkə kimi dünya xəritəsində yer almasına rəğmən, aparılan danışıqlarda ikili standartlara yol verilib. O cümlədən, Azərbaycanın haqlı tələbləri qulaqardına vurulub. Məgər bunun özü də yuxarıda qeyd edilən faktorlara bənzəmirmi?! Terrora dəstək deyilmi?!

Bu ilin aprelində, dörd gün ərzində ermənilərin təxribatçı əməllərinin qarşısı Azərbaycanın Silahlı Qüvvələri tərəfindən alınarkən, işğal altındakı torpqalarımızın 2000 ha ərazisi azad edilərkən, məhz həmin bu Qərb dərhal ortaya çıxıb, ordumuzun qələbə yürüşünün davamlı şəkil almaması üçün fəaliyyətə keçdi. Çünki məğlub olunan tərəf "xristian klubu"nun üzvü Ermənistan idi. Yəqin ki, bu ətrafda əlavə şərh verməyə də ehtiyac qalmır...

Ona görə də, belə məlum olur ki, nə qədər ki, avropalılar davamlı terrora məruz qalmayıb, onun daha ciddi, kütləvi ağrı-acılarını yaşamayıblar, başqalarının dərdinə şərik çıxmaqdan imtina edirlər. Ancaq bununla yanaşı, avropalı siyasət başbilənləri onu da unutmamalıdırlar ki, bu gün Fransada və Almaniyada baş verən terror hadisələrinin əsas baiskarları da onların özləridirlər. Tökülən qanların, itirilən həyatların hər biri onların boyunlarında qalır. Çox təəssüf ki, Avropa və Qərb yanlış siyasəti ilə özüözünü terrorun qurbanına çevirir.

**Rövşən NURƏDDİNOĞLU**

# Beynəlxalq hüquqda insan haqlarına qarşı təcavüzkarlıq və ərazi mübahisələri məsələləri

***X** X əsrin əvvəllərində beynəlxalq hüquq təcavüzkarlığı qadağan etmirdi. Prof.Z.Nəbibəyli və İ.Cəlilbəyli yazırlar: "Dövlətlərarası müharibələri isə bütün mübahisələrin həlli vasitəsi kimi əsas yol hesab edirdilər. Müasir beynəlxalq hüquq zor işlətməyi, hədələməyi və bir dövlətin digərinə təcavüzkarlığını qadağan edir.*

Belə qadağanın ilkin mühüm sənədləri, onun prinsipləri özünün rəsmi ifadəsini Nürenberq və Tokio Beynəlxalq Hərbi Tribunallarının Nizamnaməsində, BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində öz əksini tapmışdır. Bizim əsrdə böyük Avropa dövlətlərindən sayılan Turkiyə ilə Rusiya (keçmiş SSRİ) arasında 1920-21-ci və 1925-ci illərdə bağlanmış müqavilələri, yəni hücum etməmək prinsiplərini təsdiq edən sənədləri misal kimi yada salmaq olar. Sonralar bu müqavilələr daha geniş çərçivədə inkişaf etdirildi və əlavə olaraq, hər iki dövlət də çoxtərəfli müqavilələr imzaladılar. Onun ardınca Paris Müqaviləsi - müharibədən milli siyasət aləti kimi istifadəni qadağan edən 1928-ci il sənədi - çoxtərəfli 8 müşahidənin böyük əhəmiyyəti qeydedilməlidir.

Lakin həmin dövrdə beynəlxalq hüquqda təcavüzkarlığın qadağan edilməsini və ya hücum etməmək prinsipini rəsmən təsdiq edən həmin sənədlər, habelə beynəlxalq münasibətlərdə zor işlətməmək prinsipinə əsaslandıran BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndi təcavüzkarlıq məfhumuna konkret tərif vermir. Eyni zamanda, burada hücum edilən tərəf müəyyən edilmir və təcavüzkarlıq məfhumunun əsas cəhətləri göstərilmirdi. Təbii ki, bu da beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqda çatışmazlıq idi. Bu məsələyə hüquqi baxımından düzgün tərif vermək, təcavüzkarlığı cilovlamaq və ümumilikdə, sülhü qorumaq vasitələrinin əsasıdır. Bu münasibətlə 1933-cü ildə ilk dəfə Londonda tərksilah haqqındakı konfransda təcavüzkarlıq məfhumuna tərif verilməsi məsələsi də irəli sürülmüşdür. Orada qeyd edilirdi ki, digər dövlətə qarşı birinci olaraq silahlı qüvvədən istifadə etmiş olan tərəf təcavüzkar hesab edilməlidir. Bu cür təcavüzkarlıq hərəkətlərini heç bir siyasi, hərbi-iqtisadi və ya başqa xarakterli mülahizələrlə doğrultmaq olmaz. Maraqlı cəhət budur ki, bu təklifi birinci irəli sürən "qırmızı imperiya" olmuşdur. Ancaq öz daxilində bütün türkdilli xalqları öz doğma torpaqlarından hamılıqla Sibirə sürgün edir, güllələyir, dustaqxanalara doldururdu."

Onların fikrincə, "qırmızı imperiya"nın başqa bir cəhətini də yada salmaq pis olmaz. Əslində, bu imperiya beynləxlaq aləmdə bir çox xoşagələn təkliflərlə çıxış etsə də, özü təcavüzkar olaraq qalır və indi də bu ambisiyasından əl çəkməyib.

SSRİ 1953-cü ildə təcavüzkarlıq məfhumunun yeni tərifini və 1967-1969-cu illərdə isə onun təkmillənmiş formasını yenidən BMT Baş Məclisinə təqdim edərək, birinci olaraq silahlı güvvədən istifadə edən dövləti təcavüzkar kimi tanımaq fikrində qalmışdır.

Bu gün BMT-nin müddəalarına görə hər hansı dövlətin birinci olaraq müharibə elan etməsi, nüvə silahı, bakterioloji və ya kimyəvi silah işlətmək, başqa dövlətin ərazi və əhalisini bombardman etmək və ya atəşə tutmaq, silahlı basqın etmək, ərazini hərbi işğal və ilhaqcı, başqa dövlətin sahil və ilmanlarının mühasirəsi və ya Təhlükəsizlik Şurasının qərarı ilə təcavüzkarlıq kimi müəyyən edilən hər hansı digər hərəkətlər acıq silahlı təcavüzkarlıq əməllərindəndir. Hətta daxili çevriliş etmək və ya təcavüzkarlıq xeyrinə siyasət yeritmək üçün başqa dövlətin ərazisinə silahlı terrorçular, təxribatçılar göndərilməsi də dolayı təcavüzkarlıq məfhumuna aiddir. 1990-cı ilin yanvarında Bakıya yeridilən rus qoşunlarının törətdiyi vəhşiliklər bunun bariz nümunəsidir. Yaxud 366-cı rus diviziyasının ermənilərlə birlikdə Xocalıda həyata keçirdikləri soyqırımı da bu qəbildəndir. Həmin əməllər təcavüzkar dövlətin siyasi və maddi məsuliyyətinə səbəb olan beynlaxlaq cinayət hesab olunur ki, bu cinayətləri törətməkdə təqsirləndirilən şəxslər cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Təəssüf ki, erməni- Azərbaycan müharibəsində cinayətkar, əli azərbaycanlıların qanına batmış olan Ter-Petrosyan, R.Koçaryan, onun ardınca Sarkisyan prezident seçildilər və nə dünya ictimiyyəti, nə də ki, BMT bu şəxsləri indi də cinayətkar kimi qəbul etmək fikrindən uzaqdılar. Görünür ki, burada beynəlxalq hüquqdan öncə islam faktoru kimi məsələnin müsbət həllinə maneçilik göstərir. Təbii ki, burada başqa amillər də az deyildir.

Müəlliflər daha sonra yazırlar: "1974-cü ildə BMT Baş Məclisinin 29-cu sessiyasındakı qətnamənin birinci məfhumunun tərifi belədir: "Bir dövlətin başqa dövlətin suverenliyinə, ərazi toxunulmazlığına və ya siyasi müsətqiliyyinə qarşı silahlı qüvvə işlətməsi və ya BMT-nin nizamnaməsi ilə bir araya sığmayan, həmin tərifdə müəyyən edildiyi kimi, hər hansı başqa yolla qüvvə tətbiq edilməsi təcavüzkarlıq hesab olunur". "Kor-kor, gör-gör" xalq misalında deyildiyi kimidir. Bəs nə üçün erməni Azərbaycan müharibəsində bu beynəlxalq hüquqlarımız pozulur, yaxud öz ədalətli haqqımızı ala bilmirik? Hesab edilməlidir ki, Azərbaycan hökuməti məsələni beynəlxalq aləmlə yanaşı, özümüzdə də müzakirə etməlidir, xalqla, onların qabaqcılları olan ziyalılarla və mütəxəssislərlə birlikdə araşdırmalıdır.

Qeyd edilməlidir ki, məsələ 1957-ci il Helsinki Müşavirəsində qəbul edilmiş yekun aktında da təsdiq olunmuşdur. Bu aktda göstərilir ki, "iştirakçı dövlətlər" öz qarşılıqlı münasibətlərində, habelə, ümumiyyətlə, beynəlxalq münasibətlərdə nə hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi istiqlaliyyətinə qarşı, nə də BMT-nin məqsədləri və bu Bəyannamə ilə araya sığmayan hər hansı başqa bir yolla zor işlətməyəcək və zor işlətməklə hədələməyəcəklər". Bu prinsipi pozmağı, yəni zor işlətməklə hədələməyi və ya zor işlətməyi heç bir mülahizə ilə əsaslandırmaq olmaz.

Müvafiq sürətdə iştirakçı dövlətlər digər iştirakçı dövləti zor işlətməklə, hədələmək, ya ona qarşı, bilavasitə, yaxud dolayısı ilə zor işlətmək demək olan heç bir hərəkət etməyəcəkdir.

Bərabər dərəcədə onlar başqa bir iştirakçı dövləti öz suveren hüquqlarını tamamilə həyata keçirmək fikrindən daşınmağa məcbur etmək məqsədilə heç bir zorakılıq göstərməyəcəklər.

Bərabər dərəcədə onlar öz qarşılıqlı münasibətlərində zorakılıqdan və ya zorakılıqla hədələnməkdən öz mübahisələrini və ya aralarına mübahisə sala biləcək məsələləri həll etmək kimi istifadə etməyəcəklər."

Müəlliflər qeyd etdikləri kimi, göstərilən müddəalar da Azərbaycanın xeyrinədir. Sual olunur, bəs nə üçün erməni-Azərbaycan müharibəsi 22 ildir ki, davam edir? Azərbaycan hücum edən tərəf deyil, Azərbaycan təcavüzkar deyil, Azərbaycan heç bir zor işlətmək mövqeyindən çıxış etmir. Onda ermənilər nəyə görə təcavüzkar adlandırmırlar? Deməli, məsələyə başqa mövqedən yanaşmağa ehtiyac var. Biz ilk öncə fikirləşməliyik ki, ruslar və ermənilər nəyə görə BMT-nin qərarlarını bir növ saymırlar və çıxış yolu nədədir?

Buradan və təcavüz məfhumuna öncə verilmiş anlayışdan aşkar görünür ki, beynəlxalq münasibətlər sahəsində başqa dövlət və xalqlara qarşı zorakılığın, siyasi, iqtisadi və ideoloji təzyiqin bütün formaları qadağan edilməlidir.

Biz həm də bilməliyik ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, hər bir dövləti təcavüzkarlığa qarşı müdafiə etmək hüququ vardır. Həmin hüquqdan istifadə edən hər bir dövlət bu barədə təxirə salınmadan Təhlükəsizlik Şurasına müraciət etməlidir.

Bu məsələdə də fikirləşməyə və optimal qərar çıxarmağa Azərbaycanın böyük ehtiyacı var.

BMT Təhlükəsizlik Şurası, adətən özünün 41 və 42-cı maddələrinə müvafiq tədbirlər görə bilər ki, bu məsələni də Azərbaycan özü üçün tam aydınlıq gətirdikdən sonra addım atmalıdır.

Ərazi anlayışı beynəlxalq aləmdə bu gün daha kəskin olub, Yer kürəsində quru və sulardan, onların üzərindəki hava boşluqlarından, habelə yerin altından, dənizin dibindən ibarət olan bütün sahələrə deyilir.

Dövlətlərin beynəlxalq hüquqi münasibətlər və onları tənzim edən hüquq normaları müəyyən məkanda yaradılıb fəaliyyət göstərir. Belə beynəlxalq hüquqi normaların obyektləri də başlıca olaraq coğrafi mühütlə bağlıdır. Yer kürəsinin bütün sahələri ayrı-ayrı dövlətlərin ərazisinin tərkibinə daxil olmaqla onların qanunlarının təsiri altında olur (Antarktida, dünya okeanı, onun dibi, açıq dənizlər, kosmik fəzadan başqa).




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Ərazi həm dövlət hüquqi, həm də beynəlxalq hüquq əsasında tənzim olunan predmetdir. Beynəlxalq münasibətlərdə ərazi həm müxtəlif dövlətlərin hakimiyyət fəaliyyətinin hüdudu, həm də onların arasında xarici siyasətini və beynəlxalq hüquqi münasibətlərin obyektidir.

Beynəlxalq hüququn bir subyekti kimi nə əhalisiz, nə də ərazisiz normal dövlət varlığı mümkün deyildir. Elə bu səbəbdən də ermənilər Azərbaycanın torpaqlarını tutduqca yerli əhalini yox edib, başqa-başqa dövlətlərdə yaşayan erməniləri oraya köçürür, yaxud yalandan həmin ünvanda qeydiyyata götürürlər. O, səbəbdən də Ermənistanda əhalinin ümumi sayı, yaşayanlardan çox olur, hətta belə yalançı statistika ilə ermənilərin "genosid"ini də sənədləşdirməyə səy göstərirlər.

Dövlət ərazisinin yalnız dövlətə məxsus olub onun tam və müstəqil hakimiyyəti altında olmasına, beynəlxalq hüquqda ərazi başçılığı və ya ərazi üstünlüyü deyilir.

Ərazi başçılığının hüquqi təbiəti haqqında tarixən üç nəzəriyyə mövcud olmuşdur. Bunlar ərazini hökmdarın ali hakimiyyət, yəni onu dövlətə və ya millətə məxsus olan mülkiyyət hesab edən obyekt nəzəriyyəsi ərazinin dövlət hakimiyyətinin sahəsi hesab edən hakimiyyət nəzəriyyəsi: əraziyə coğrafi anlayış deyil, hüquqi cəhətcə dövlət fəaliyyətinin həyata keçirildiyi yer kimi baxış səlahiyyətlər nəzəriyyəsidir.

Z.Nəbibəyli və İ.Cəlilbəyli yazırlar: "Hazırkı beynəlxalq hüquqda bütün xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etmək hüququnu, əsasən, hər bir xalq ərazisində siyasi-iqtisadi və mədəni həyatını təşkil etmək, ictimai qaydanı təmin etmək və s. kimi funksiyaların müstəqil həyata keçirməlidir. Deməli, həmin ərazidə sahibkar dövlətdən başqa heç kəs qanunlar verməkhüququna malik deyildir. Ərazi başçılığı dövlət suverenliyinin ayrılmaz hissəsidir. Ona görə də beynəlxalq hüquq nöqteyi-nəzərindən ərazi başçılığının pozulması, dövlət suverenliyinin pozulması deməkdir.

Bəzi dövlətlər buna məhəl qoymasalar da dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı müasir beynəlxalq hüququn ən mühüm və ümumi tanınmış prinsiplərindən bindir. Qanun BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində öz rəsmi ifadəsini tapmışdır.

Hər hansı bir dövlətin tam və müstəqil suverenliyi altında olan bütün sahələr, o cümlədən quru və sular, yerin altı və müvafiq hava sahəsi dövlət ərazisinin tərkibinə daxildir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 26 iyul


## İşdə tərəvəz, meyvə və buterbrod yemək məsləhətdir

İstənilən ofis işçisinin nahar fasiləsi vaxtı olur. Adətən nahar fasiləsinə 30-60 dəqiqə vaxt verilir. Buna görə də yemək həm əlüstü, həm də faydalı olmalıdır. AZƏRTAC "healthvesti.com" saytına istinadla xəbər verir ki, bütün məhsullar mütləq soyuducuda saxlanılmalıdır. Bu ona görə vacibdir ki, işə gətirdiyiniz yemək gün ərzində xarab olmasın. Ofisdə boşqabdan yemək və qab-qacaq dəstindən istifadə etmək çox da rahat deyil. Yaxşısı budur ki, meyvə və tərəvəz doğraya biləcəyiniz xüsusi konteyner gətirəsiniz. Əgər siz buterbrod yeməyi planlaşdırırsınızsa, onu elə hazırlamalısınız ki, əlinizdə rahat tuta biləsiniz. Yüngül yemək üçün banan, alma, portağal, kök, xiyar, bibər, giləmeyvə və s. əla gedər. İşə hazır kökələr də götürmək olar. Bu məhsullarda sağlamlığa və maddələr mübadiləsinə faydalı olan çoxlu mineral və vitaminlər var. Hazır kökələr tez doymağa kömək edir və demək olar kalorisizdir. Bu cür məhsullardan istifadə etməklə artıq çəkinin nə demək olduğunu unuda bilərsiniz. İşə rollı (Yaponiya, yaxud Koreya mətbəxinin yeməyi) da götürə bilərsiniz. Onun üçün içliyi yunan qabağı və badımcan kürüsü, tərəvəz və ya göyərti əlavə edilmiş kəsmikdən hazırlamaq olar. İşə qoz-fındıq gətirməyə çalışmayın. Onlar, sözsüz ki, dadlıdır, lakin kalorilidir. Mağazadan alınmış quru meyvə də məsləhət deyil, çünki onlara şirə hopdururlar. Ən yaxşısı quru meyvəni ev şəraitində hazırlamaqdır. İşdə su içməyi yaddan çıxarmayın. Əgər gündə iki litr su içsəniz, sağlamlığınızı qoruya bilərsiniz. Yadda saxlayın ki, düzgün qidalanmaq lazımdır, çünki səhhətiniz və iş qabiliyyətiniz bundan asılıdır.



## Bədii ədəbiyyatın mütaliəsi insanı daha duyğulu edir

Bədii ədəbiyyat insan şəxsiyyətinin incə cəhətlərini inkişaf etdirir. Bu cür kitablar empatiyaya, yəni mərhəmət hissinin güclənməsinə təsir edir. AZƏRTAC "medvesti.com" saytına istinadla xəbər verir ki, Toronto Universitetinin bir qrup psixoloqu təxəyyül və fantaziyanın gücünü unutmamağı məsləhət görür. Uydurma hekayələr və təxəyyülün məhsulu olan müxtəlif süjetlər qurmaq bacarığı fərdi inkişaf üçün çox vacibdir. Araşdırmalar sübut edir ki, fantaziyanın işə salınması ilə insanın hippokampı aktivləşir. Axı beynin bu zonası yaddaş və öyrənməyə cavabdehdir. Qeyd edək ki, asudə vaxtın digər fəaliyyət növlərinin - fotolara, filmlərə baxmağın, süjetli oyunlar oynamağın da oxşar effekti var.



## Nə qədər yediyini yaz, tez arıqla

Amerikada keçirilən bir araşdırmaya görə, "yemək gündəliyi" tutan qadınlar daha tez arıqlayır. Boğazından keçən hər loxmanı yazmaq kalori nəzarətində mühüm rol oynayır. Bu formada pəhriz saxlayan insan pəhrizinə daha sadiq olur. Araşdırma qrupundan olan Anne Mc Tiernan bildirib ki, insanlar gündəlik əvəzinə yediklərini noutbuka, telefona və ya ipad-a yazaraq yediklərini nəzarətdə saxlaya bilər. Məqalədə bildirilib ki, insanlar xüsusən də günorta yeməklərini restoranda yeməkdən qaçmalıdır. Gündə üç dəfə yemək həkimlərin əsas məsləhətidir. Hansısa yemək növbəsini adlamaq arıqlamaya ən böyük zərbədir. Bir illik araşdırma nəticəsində məlum olub ki, yediklərini yazanlar digər pəhrizə girənlərlə müqayisədə 3 kilo daha çox çəki verib.



## İdmançılarımız avqustun 1-də Rio-de-Janeyroya yola düşəcək




AZƏRTAC xəbər verir ki, bu barədə gənclər və idman naziri Azad Rəhimov iyulun 25-də keçirdiyi mətbuat konfransında məlumat verib. Nazir deyib ki, komandamız 14 saatlıq uçuşdan sonra avqustun 2-də səhər saat 09:30-da Braziliyaya çatacaq. Bir gün sonra Olimpiya Kəndində Azərbaycan idmançılarının salamlanması və dövlət bayrağımızın qaldırılması mərasimi təşkil olunacaq. Komandamız geniş tərkibli heyətlərə daxildir. Ölkəmiz Olimpiya Oyunlarında 56 idmançı ilə təmsil olunacaq. "London-2012"də də komandamız geniş tərkibli heyətlərə daxil idi. Həmin yarışda Azərbaycanı 53 idmançı təmsil etmişdi. Millimiz Olimpiya Kəndində Portuqaliya və Slovakiya yığmaları ilə eyni binada məskunlaşacaq. "Zika" virusuna qarşı lazımi tədbirlərin görüldüyünü diqqətə çatdıran nazir deyib: "Bütün bunları nəzərə alaraq, nümayəndə heyəti üçün xüsusi tibb çantaları hazırlanıb. Həmin çantalarda "Zika" virusuna qarşı xüsusi şprislər var. Çantada, digər lazımi tibbi ləvazimatlar da var". Son altı ay ərzində idmançılarımızın 12 gündən az olmayaraq, 100 təlim-məşq toplanışında iştirak etdiyini diqqətə çatdıran Azad Rəhimov atletlərimizin həmin dövrdə 94 respublika, 24 yerli beynəlxalq və 102 irimiqyaslı tədbirdə qüvvələrini sınadıqlarını, 300 medal qazandıqlarını deyib. Nazir həmin medallardan 170-nin Olimpiya idman növlərinə aid olduğunu vurğulayıb. Bildirilib ki, olimpiyaçılarımız ilə yanaşı, paralimpiyaçılarımız da dördilliyin zirvə yarışına ciddi hazırlaşırlar. "Rio-2016" Yay Paralimpiya Oyunları sentyabrın 7-dən 18-dək davam edəcək. Paralimpiyaçılardan da uğurlu nəticələr gözləyirik. Mötəbər yarışa hazırlıqla bağlı paralimpiyaçılarımız üçün lazımi şərait yaradılıb. "Olimpiya Oyunlarına hazırlıq Konsepsiyası" haqqında məlumat verən Azad Rəhimov sənədin üç istiqaməti əhatə etdiyini diqqətə çatdırıb. Bildirib ki, konsepsiyada əsas, dayaq və zəif inkişaf etmiş idman növləri yer almışdı. Çox sevindirici haldır ki, əsas idman növlərində tam olaraq lisenziyalar qazanılıb. Həmçinin zəif inkişaf etmiş idman növlərinə aid etdiyimiz - triatlon, qılıncoynatma, atıcılıq və digər növlərdə də lisenziyalar qazanılıb. "Rio-2016"da Azərbaycan millisi idmanın 18 növü üzrə təmsil olunacaq. Onlardan dördü üzrə idmançılarımız ilk dəfə mübarizə aparacaqlar. Sonda "Rio-2016"da mübarizə aparacaq Azərbaycan idmançılarından bəhs edən film nümayiş olunub.

## "Mançester Siti" Enes Ünalı "Tvente"yə verdi



"Mançester Siti" türk futbolçusu Enes Ünalı icarəyə verib. İngilis klubunun rəsmi saytının yaydığı xəbərə görə, türk hücumçu növbəti mövsümün sonuna kimi icarə əsasında "Tvente"də çıxış edəcək. Qeyd edək ki. E.Ünal ötən mövsüm "Mançester Siti" ilə 5 illik müqavilə imzalayıb.

## Rodriqes 85 milyon avrodan niyə imtina etdi?




"Real"ın futbolçusu Xames Rodriqes 85 milyon avroluq təklifi rədd edib. Qol.az-ın "Marca"ya istinadən yaydığı xəbərə görə, bu barədə kolumbiyalı yarımmüdafiəçinin özü məlumat verib: Bir klub mənim üçün "Real"a 85 milyon avroluq təklif göndərdi. Ancaq mən Madrid klubundan ayrılmaq istəmədim. "Real"da qalacam. İlk on birlikdə olmaq üçün mübarizə aparacağam".

## "Sportinq" futbolçumuza 60 milyon qiymət qoydu!



"Sportinq" azərbaycanlı futbolçu Budaq Nəsirovla müqavilə imzaladığını təsdiqləyib. Qol.az-ın klubun saytına istinadən yaydığı xəbərə görə, Portuqaliya təmsilçisi gənclərdən ibarət millimizin üzvü ilə 5 illik - 2021-ci ilin iyuna ayına qədər müqavilə imzaladığını təsdiqləyib. Məlumatda həmçinin bildirilib ki, əgər futbolçu vaxtından əvvəl başqa komandaya keçsə, bu zaman onu alan klub "Sportinq"ə təzminat olaraq, 60 milyon avro ödənilməlidir. "Sportinq" 20 yaşlı yarımmüdafiəçimizə komandada keçirəcəyi oyunlarda uğurlar arzulayıb.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**